HƏR BİR VƏTƏNDAŞ VERGİ ÖDƏMƏKDƏN ŞƏRƏF DUYMALIDIR



Biz bazar iqtisadiyyatını vergi yolu ilə tənzimləməliyik.

Heydər ƏLİYEV

Vergilər

№ 14 (856) ■ 18 aprel 2017 www.vergiler.az Qiyməti: 60 qəp.

# Prezident İlham Əliyevin Yevlax rayonuna səfəri

**Azərbaycan Prezidenti İlham Əliyev aprelin 16-da Yevlax rayonuna səfər edib. Dövlətimizin başçısı əvvəlcə ümummilli lider Heydər Əliyevin Yevlax şəhərinin mərkəzində ucaldılmış abidəsini ziyarət edərək önünə gül dəstəsi qoyub.**

Prezident İlham Əliyevə Yevlax rayonunda görülən işlər, həyata keçirilən layihələr barədə məlumat verilib. Bildirilib ki, son illər rayonun sosial-iqtisadi göstəriciləri xeyli yaxşılaşıb. Rayonda çoxlu sosial infrastruktur obyektləri tikilib, yeni istehsal müəssisələri yaradılıb.

Azərbaycan Prezidenti səfər çərçivəsində Varvara Su Elektrik Stansiyasının yenidənqurmadan sonra açılışında iştirak edib. Dövlətimizin başçısına bildirilib ki, bütün hidrogeneratorların və hidroturbinlərin yeniləri ilə əvəzlənməsi nəticəsində stansiyanın gücü artaraq 18 MVt-yə çatıb. Bundan başqa, 35 kilovoltluq qapalı paylayıcı qurğu və müvafiq ötürücü şəbəkə tam yenilənib, idarəetmə və tənzimləmə sistemi texnologiyanın son nailiyyətlərindən istifadə edilməklə müasirləşdirilib, bütün köməkçi avadanlıqlar təzələnib.

Sonra Prezident İlham Əliyev Yevlax rayonunda Salahlı-Balçılı-Ağqıraqlı-Varvara-Cırdaxan avtomobil yolunun açılışında, həmçinin Yevlax şəhərində Aran Regional İnkişaf Mərkəzinin təqdimat mərasimində də iştirak edib.



Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin sədrliyi ilə aprelin 17-də Yevlaxda qeyri-neft ixracatçılarının respublika müşavirəsi keçirilib. Müşavirəni giriş nitqi ilə açan dövlət başçısı bildirib ki, son illər ərzində Azərbaycanda ciddi islahatlar aparılıb, regionların sosial-iqtisadi inkişafı Dövlət proqramları qəbul edilib, sahibkarlara dövlət tərəfindən böyük dəstək göstərilib və göstərilir.

Prezident İlham Əliyev qeyd edib ki, bizim fəaliyyətimizin əsas istiqamətləri daxili tələbatı daxili istehsal hesabına ödəməkdən və ixrac potensialımızı artırmaqdan ibarətdir. «Biz bu yolla gedirik. Sahibkarlarla mənim müntəzəm olaraq ildə bir neçə dəfə görüşlərim keçirilir. Son 13-14 il ərzində yüzlərlə sahibkarla görüş keçirilmişdir. Mən sahibkarlıq fəaliyyəti sahəsində bir çox müəssisələrin açılışında şəxsən iştirak etmişəm. Sahibkarlar yaxşı bilirlər ki, onların fəaliyyətinə dövlət tərəfindən çox böyük dəstək, həmçinin siyasi dəstək verilir. Bu gün cəmiyyətdə sahibkarlara münasibət müsbətə doğru dəyişir və əlbəttə ki, sahibkarların sosial məsuliyyəti gündəlikdə duran məsələlərdən biridir. Mən dəfələrlə bu barədə öz fikirlərimi bildirmişəm. Bu, həm sahibkarlara lazımdır ki, cəmiyyət onların işini daha yüksək qiymətləndirsin, eyni zamanda, sahibkarlar da öz tərəflərindən nəinki biznes maraqları, ümumiyyətlə ölkə qarşısında duran vəzifələrin, o cümlədən sosial vəzifələrin icrası üçün də səylərini qoysunlar. Əminəm ki, onlar maddi imkanları artdıqca bu məsələyə daha da böyük diqqət və vəsait ayıracaqlar».

Azərbaycan Prezidenti qeyd edib ki, dövlətin həyata keçirdiyi siyasətdə sahibkarlığın inkişafı prioritet məsələlərdən biridir. Sahibkarlığın inkişafı üçün həm siyasi dəstək verilir, eyni zamanda, dövlət qurumları tərəfindən çox böyük metodiki dəstək göstərilir, regional inkişaf mərkəzləri yaradılır. Eyni zamanda, sahibkarlara güzəştli kreditlərin verilməsi artır: «Son illər ərzində Sahibkarlığa Kömək Milli Fondunun xətti ilə sahibkarlara dövlət tərəfindən 2 milyard manatdan çox güzəştli şərtlərlə kreditlər verilmişdir. Bu kreditlər, eyni zamanda, sahibkarların qoyduqları vəsaitlər hesabına icra edilən layihələr bu gün deməyə əsas verir ki, biz qeyri-neft ixracımızı artırırıq. Çünki əgər bu kreditlər olmasaydı, bir çox layihələr icra edilməmiş qalardı və bu gün nəinki ixrac potensialımızın artırılmasından, ümumiyyətlə, daxili tələbatın ödənilməsindən söhbət gedə bilməzdi. Ona görə dövlət siyasəti, sahibkarlığa göstərilən həm siyasi dəstək, mənəvi dəstək, maliyyə dəstəyi və sahibkarlığın inkişafı üçün aparılan ciddi islahatlar və onlara edilən güzəştlər bu gün Azərbaycanda qeyri-neft sektorunun inkişafına təkan verən əsas amillərdən biridir».





*Sahibkarlara göstərilən siyasi, mənəvi, maliyyə dəstəyi və onlara edilən güzəştlər bu gün Azərbaycanda qeyri-neft sektorunun inkişafına təkan verən əsas amillərdən biridir*

Prezident İlham Əliyev bildirib ki, sahibkarlığın inkişafında və ölkəmizin sosial infrastrukturunun yaxşılaşmasında regional inkişaf proqramları mühüm rol oynayıb: «Əgər biz infrastruktur layihələrinə vəsait qoymasaydıq, heç bir inkişafdan söhbət gedə bilməzdi. Onu biz o vaxt etməyə başladıq ki, hələ ölkəyə böyük həcmdə neft gəlirləri gəlməmişdi. Neft gəlirləri Bakı-Tbilisi-Ceyhan neft kəmərinin 2006-cı ildə istismara verilməsindən sonra gəlməyə başlamışdır. Ancaq biz birinci Regional İnkişaf Proqramını 2004-cü ildə qəbul etdik və onu icra etməyə başladıq. Bu, onu göstərir ki, bizim uğurlarımızın təməlində təkcə maliyyə vəziyyətimiz dayanmır. Eyni zamanda, düşünülmüş siyasət, güclü iradə və düzgün seçilmiş ardıcıl fəaliyyətimiz həm regional inkişaf proqramlarının icrasına gətirib çıxardı və bütövlükdə bütün digər sahələrdə də biz ardıcıl siyasət apararaq ölkəmizi gücləndiririk. Demək olar ki, 2004-cü ildən bu günə qədər Azərbaycanda əsas infrastruktur layihələri icra edilmişdir».

Prezident İlham Əliyev regional inkişaf proqramlarının icrası sayəsində minlərlə yeni müəssisənin yaradıldığını, 1 milyon 700 min yeni iş yeri açıldığını diqqətə çatdırıb. Qeyd edib ki, həyata keçirilən səmərəli siyasət nəticəsində Azərbaycan öz iqtisadi potensialını şaxələndirə bilib: «Hazırda qeyri-neft sektorumuz iqtisadiyyatımızın təxminən 65 faizini təmin edir. İxracatda isə biz bunu hələ ki, deyə bilmərik. İxracımızın böyük hissəsi hələ ki, neft və qazla bağlıdır. Bu da yəqin ki, indiki dövr üçün təbiidir. Çünki biz neft-qaz potensialımızı artırırıq. Ancaq qarşıda duran vəzifələrdən biri də odur ki, biz ixracda da şaxələndirməyə nail olaq».

Dövlətimizin başçısı onu da bildirib ki, onun tərəfindən imzalanan fərman və sərəncamlar iqtisadiyyatımızı daha da şaxələndirmək üçün yaxşı imkanlar yaradıb: «Xüsusilə qeyri-neft ixracı ilə bağlı atılmış addımlar artıq öz gözəl nəticələrini verməkdədir. Biz təşviq sistemini tətbiq etməyə başladıq. Mən əvvəlki illərdə də bu barədə demişdim. Çünki bir neçə ölkədə təşviq sistemi özünü doğrultmuş və ixracın sürətli artımına gətirib çıxarmışdır. Biz dünyada mövcud olan ən qabaqcıl təcrübəni öyrənmişik və Azərbaycanda investisiyanın və ixracın təşviqi sistemlərini tətbiq etməyə başlamışıq. Hər iki mexanizm işə salınıb və artıq uğurla icra edilir. İnvestisiya təşviqi mexanizmi işə salındı. Artıq qısa müddət ərzində investisiya təşviqi üzrə 130 sənəd verilmişdir. Bu proqram çərçivəsində ölkə iqtisadiyyatına sahibkarlar tərəfindən 1 milyard 250 milyon manat həcmində sərmayə qoyulur və qoyulacaqdır. Yəni bu investisiya təşviqi mexanizmini işə salmaqla, görün, biz investisiya üçün nə qədər vəsait cəlb etmişik. Sahibkarlar özləri bunu təşkil edirlər».

«Made in Azerbaijan» brendinin dünyada tanıdılması üçün praktiki addımların atılmasına diqqət çəkən dövlətimizin başçısı artıq bu brendin dünyada şöhrət qazandığını vurğulayıb. Kənd təsərrüfatının inkişafı sahəsində görülən işlərə toxunan Prezident İlham Əliyev qeyd edib ki, mülkiyyətçilərə kreditlər verilir, fermerlər torpaq vergisindən başqa bütün vergilərdən azaddırlar: «Texnika alınır, güzəştli şərtlərlə gübrələr, yanacaq, subsidiyalar verilir. Bütün bunlar qeyri-neft sektorumuzu canlandırdı. Ancaq sahibkarlara əlavə dəstək verilməlidir ki, onlar artıq öz məhsullarını xarici bazarlara çıxarsınlar. Çünki bu, onlara da, dövlətə də lazımdır. Bu, ölkəmizə valyuta gətirir. Ona görə, biz bu sərgilərdə iştirakımızı genişləndirməyə başladıq. Xarici ölkələrə bir neçə ixrac missiyası ezam edilmişdir. Bu missiyaların da çox böyük faydası var. Qərara gəldik ki, bir neçə ölkədə Azərbaycanın ticarət evlərini yaradaq və biz artıq buna yaxınlaşırıq. Yəni dövlət tərəfindən atılmış bütün bu addımlar əlbəttə ki, sahibkarlar üçün yeni imkanlar yaradır».

Sonra iqtisadiyyat naziri Şahin Mustafayev, Şərab İstehsalçıları və İxracatçıları Assosiasiyasının sədri Elçin Mədətov, Fındıq İstehsalçıları və İxracatçıları Assosiasiyasının sədri İsmayıl Orucov, «Azersun Holdinq» MMC-nin baş icraçı direktoru Savaş Uzan, Az-Granata» MMC-nin direktoru Rövşən Fərhadov, «Gök-NUR Bakı» MMC-nin müdiri Fərid Fərhadzadə, «D-Fruits Kəndli Təsərrüfatı» MMC-nin təsisçisi İsaməddin Dəmirov, Biznes İnkubator iştirakçısı Ariz Mikayilov çıxış edərək həyata keçirilən hərtərəfli islahatların mühüm əhəmiyyətindən, qeyri-neft məhsulları ixracının artırılması, yeni bazarlara çıxışının təmin olunması sahəsində görülən işlərdən bəhs ediblər.

Müşavirədə yekun nitqi söyləyən Prezident İlham Əliyev daxili tələbatın tam ödənilməsi, ixracyönümlü müəssisələrin yaradılması, prioritet olan ixrac bazarlarında böyük satış şəbəkələri ilə işgüzar əməkdaşlığın qurulması və digər tədbirlərin görülməsi üçün müvafiq tapşırıqlarını verib.

## Prezidentin Mətbuat Xidmətinin məlumatı

**Aprelin 16-da Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Türkiyə Respublikasının Prezidenti Rəcəb Tayyib Ərdoğana telefonla zəng edib.**

**Prezident İlham Əliyev Türkiyə Respublikası Konstitusiyasına dəyişikliklər edilməsi ilə bağlı referendumun uğurla keçirilməsi və əhalinin çoxluğunun bu dəyişikliklərə səs verməsi münasibətilə Türkiyə Prezidentini və xalqını təbrik edib, referendumun nəticələrini xalqın Prezident Rəcəb Tayyib Ərdoğanın siyasətinə verdiyi böyük dəstək kimi qiymətləndirib.**

**Rəcəb Tayyib Ərdoğan göstərilən diqqətə və təbriklərə görə minnətdarlığını bildirib. Dövlət başçıları ölkələrimiz arasında dostluq və qardaşlıq münasibətlərinin bundan sonra da bütün sahələrdə uğurla inkişaf edəcəyinə əminliklərini ifadə ediblər.**

## Dövlətimizin başçısı Ukrayna paytaxtının merini qəbul edib

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev aprelin 13-də Ukraynanın Kiyev Şəhər Dövlət Administrasiyasının başçısı Vitali Kliçkonu qəbul edib. V.Kliçko ilə bu yaxınlarda Münxendəki görüşünü xatırlayan dövlətimizin başçısı onun Azərbaycana səfərinin maraqlı keçəcəyinə, ölkələrimiz, o cümlədən Bakı ilə Kiyev arasında əlaqələrin möhkəmləndirilməsi işinə xidmət edəcəyinə ümidvar olduğunu bildirib.

Əməkdaşlıq və qarşılıqlı təcrübə üçün yaxşı perspektivlərin olduğunu vurğulayan dövlətimizin başçısı Vitali Kliçkonun bu səfərinin həmkarları ilə görüşmək, paytaxtımızda gedən inkişaf prosesləri və Bakıda inşa olunan idman obyektləri ilə yaxından tanış olmaq üçün imkan yaratdığını deyib.

Azərbaycana səfərindən böyük məmnunluq hissi keçirdiyini bildirən qonaq Bakıda uzun müddət olmadığını və paytaxtımızın gözəlliyinin onda dərin təəssürat yaratdığını vurğulayıb. O, bu səfəri ilə bağlı ölkələrimiz, eləcə də Bakı ilə Kiyev arasında əməkdaşlığın genişləndirilməsi baxımından böyük hazırlıq işlərinin görüldüyünü qeyd edib.

Sonra Vitali Kliçko dünya şöhrətli boksçu Məhəmməd Əliyə həsr olunmuş, üzərində Məhəmməd Əlinin şəxsi avtoqrafı olan məhdud nəşrli kitab-albomun bir nüsxəsini hədiyyə olaraq Prezident İlham Əliyevə təqdim edib.

## BU NÖMRƏMİZDƏ

VERGİLƏR NAZİRLİYİNƏ İŞƏ QƏBULLA BAĞLI İMTAHAN KEÇİRİLİB 2

AZƏRBAYCANIN VERGİ İSLAHATLARI BEYNƏLXALQ TƏŞKİLATLAR TƏRƏFİNDƏN YÜKSƏK QİYMƏTLƏNDİRİLİR 3

NƏZARƏT TƏDBİRLƏRİ ANALİTİK MƏLUMATLAR, İNFORMASİYA TEXNOLOGİYALARI VƏ BAZA MƏLUMATLARI ƏSASINDA APARILIR 4

SAHİBKARLIĞIN İNKİŞAFI İLƏ BAĞLI YENİ HƏDƏFLƏR 5

# Vergi hüquqpozmalarına qarşı ciddi tədbirlər görülür

2017-ci ilin 1-ci rübündə Vergilər Nazirliyi yanında Vergi Cinayətlərinin İbtidai Araşdırılması Departamentində vergi ödəməkdən yayınma və qanunsuz sahibkarlıq fəaliyyəti ilə məşğul olma faktları üzrə başlanmış 33 cinayət işi üzrə aparılan araşdırmalar zamanı 906,3 min manat vəsaitin dövlət büdcəsinə ödənilməsi təmin edilib.

Departamentin İstintaq idarəsində 141 cinayət işi üzrə ibtidai istintaq tamamlanıb, 4 nəfər təqsirləndirilən şəxs barəsində həbs qətimkan tədbiri seçilib. İstintaqı tamamlanmış cinayət işlərindən 31 iş üzrə 33 nəfər barəsində materiallar ittiham aktı ilə aidiyyəti üzrə baxılması üçün məhkəmələrə göndərilib. 110 cinayət işi üzrə büdcədən yayındırılmış vergilər ibtidai istintaq zamanı tamamilə ödənildiyinə görə, onların icraatına xitam verilib.

İstintaq-əməliyyat tədbirləri nəticəsində vergi cinayətləri törətdikləri üçün barələrində axtarış elan olunmuş 6 nəfər tutularaq departamentin İstintaq idarəsinə təhvil verilib. İbtidai istintaqdan yayınan 49 şəxsin məcburi qaydada gətirilməsi, 92 şəxsin tapılaraq istintaqa cəlb olunması, 96 şəxsin yerinin müəyyən edilərək istintaqa məlumat verilməsi təmin olunub. Vergi orqanlarının üzərinə düşən vəzifələrin icrasına köməklik göstərilməsi ilə bağlı müraciətlərə baxılması nəticəsində vergi yoxlamalarından, əmlakın siyahıya alınmasından yayınan və fəaliyyəti barədə bəyannamə təqdim etməyən 35 nəfər vergi ödəyicisi müvafiq vergi orqanlarına gətirilib.

# Vergilər Nazirliyinə işə qəbulla bağlı imtahan keçirilib

Aprelin 15-də Vergilər Nazirliyi Dövlət İmtahan Mərkəzi ilə birlikdə ərazi vergi orqanlarında və rayon vergilər şöbələrindəki vakant vəzifələrə işə qəbulla bağlı test imtahanı keçirib.

Müsabiqə elanı KİV-də, o cümlədən Vergilər Nazirliyinin rəsmi internet saytında, habelə «Facebook» və digər sosial səhifələrdə yerləşdirilərək ictimaiyyətə çatdırılıb. Elanda sənəd qəbulu, müsabiqənin keçirilməsi şərtləri və qaydaları barədə ətraflı məlumat öz əksini tapıb. Namizədlərin daha yaxşı hazırlaşmasına imkan yaratmaq məqsədilə istifadə olunan sualların tərtib edildiyi ədəbiyyat siyahısı nazirliyin internet saytı vasitəsilə namizədlərə çatdırılıb.

Müsabiqəyə sənəd qəbulu 27 fevral 2017-ci il tarixdən 12 mart 2017-ci il tarixədək elektron ərizə formasında aparılıb. Müsabiqədə iştirak etmək üçün 1444 nəfər vətəndaş müraciət edib, onlardan vakant vəzifələrin tələblərinə uyğun olan 1324 nəfər namizəd qismində müsabiqədə iştiraka buraxılıb.

Müsabiqə, test imtahanı və müsahibə olmaqla, iki mərhələdə keçirilir. Qanunvericiliyə uyğun olaraq, test imtahanında uğur qazanmış namizədlər müsabiqənin ikinci mərhələsinə - müsahibəyə buraxılırlar. Müsahibə zamanı namizədlərin ümumi dünyagörüşü, onların müvafiq sahədə bilikləri və onları tətbiq etmək bacarıqları yoxlanılır. Şəffaflığın təmin edilməsi üçün müsahibə kollegial şəkildə - Müsabiqə Komissiyası tərəfindən aparılır, bu zaman audio-video çəkilişdən istifadə edilir.

Müsahibədə uğur qazanan namizədlər dövlət vergi orqanlarının ehtiyat kadrlar siyahısına daxil ediləcək və onların vakant vəzifələrə təyinatı üzrə müvafiq tədbirlər görüləcək. Müsahibənin nəticələri Vergilər Nazirliyinin internet saytı vasitəsilə ictimaiyyətə açıqlanacaq.



# «Vergilər» mövzusunda ənənəvi olimpiadanın ilkin mərhələsi

Aprel ayının 16-da respublikanın paytaxt və regionlarını təmsil edən ali məktəblərin bakalavr və magistratura pillələrində təhsil alan tələbələr arasında ümummilli lider Heydər Əliyevin xatirəsinə həsr olunmuş «Vergilər» mövzusunda 11-ci olimpiadanın ilkin seçmə mərhələsinə start verilib. Hər il keçirilən ənənəvi olimpiadanın təşkilində əsas məqsəd gənclərin vergi sahəsində biliklərinin artırılması, bilik səviyyəsi yüksək olan tələbələrin müəyyən edilməsi, gələcəkdə vergi sahəsi üzrə mütəxəssislərin yetişdirilməsi üçün zəmin yaradılmasından ibarətdir.

Vergilər nazirinin əmri ilə təsdiq edilmiş «Ali təhsil müəssisələrinin bakalavr və magistratura pillələrində təhsil alan tələbələr arasında «Vergilər» mövzusunda olimpiadanın təşkili və keçirilməsi Qaydaları»na əsasən, bilik yarışması seçmə və yekun olmaqla 2 mərhələdə aparılır. Seçmə mərhələsi olimpiadada iştirakı nəzərdə tutulan hər bir ali təhsil müəssisəsinin özündə təşkil olunur. Ali təhsil müəssisələri öz tələbələri arasında nəzərdə tutulan mövzular əsasında Vergilər Nazirliyinin Tədris Mərkəzi tərəfindən hazırlanmış 50 test sualı üzrə 90 dəqiqəlik daxili imtahan keçirirlər. İmtahanların nəticələri barədə məlumat Vergilər Nazirliyinə təqdim edilir.

Olimpiadanın ilk seçmə mərhələsi aprelin 16-da paytaxtda - Azərbaycan Dövlət İqtisad Universitetində və «Azərbaycan» Universitetində, regionlarda - Naxçıvan Dövlət Universitetində, Gəncə Dövlət Universitetində və Mingəçevir Dövlət Universitetində, aprelin 17-də isə Lənkəran Dövlət Universitetində keçirilib. Seçmə mərhələsində imtahan prosesinin tam şəffaf və obyektiv qaydada keçirilməsi məqsədilə Vergilər Nazirliyinin əməkdaşları tərəfindən bütün təşkilati tədbirlər yüksək səviyyədə həllini tapıb.

Olimpiadanın yekun mərhələsinin mayın 5-də Vergilər Nazirliyinin Tədris Mərkəzində keçirilməsi nəzərdə tutulur. Mərkəzin əməkdaşları tərəfindən yekun mərhələ üçün bakalavrlara vergi qanunvericiliyi fənni üzrə 50, magistraturada təhsil alan tələbələrə isə vergi qanunvericiliyi fənni üzrə 50, vergi inzibatçılığı fənni üzrə 25 sual olmaqla ümumilikdə 75 sualdan ibarət fərdi test bazası hazırlanıb. Olimpiada onlayn rejimdə keçiriləcək. Nəticələr münsiflər heyətinin iştirakı və nəzarəti altında xüsusi kompüter proqramları vasitəsilə müəyyən ediləcək.

# Azərbaycanda qeyri-neft məhsullarının ixracı artıb

2017-ci ilin yanvar-fevral aylarında Azərbaycan Respublikasının hüquqi və fiziki şəxsləri dünyanın 137 ölkəsindəki tərəfdaşları ilə ticarət əməliyyatları həyata keçirib, 77 ölkəyə məhsul ixrac edilib, 132 ölkədən idxal olunub.

Dövlət Statistika Komitəsindən bildiriblər ki, gömrük orqanlarında qeydiyyatı aparılmış, lakin gömrük rəsmiləşdirilməsi tam başa çatdırılmamış ixrac olunan xam neft və təbii qazın statistik qiymətləndirilmiş dəyəri nəzərə alınmaqla, 2017-ci ilin yanvar-fevral aylarında xarici ticarət dövriyyəsi 3287,7 milyon ABŞ dolları, o cümlədən ixracın dəyəri 2315,7 milyon dollar, idxalın dəyəri 972 milyon dollar təşkil edib. Nəticədə 1343,7 milyon dollarlıq müsbət ticarət saldosu yaranıb.

Ticarət dövriyyəsinin 42,9 faizi Avropa İttifaqı ölkələri, 11,2 faizi MDB üzvü dövlətləri, 45,9 faizi isə dünyanın digər ölkələrinin payına düşüb. İxracın dəyərinin 25,6 faizi İtaliyaya, 7,5 faizi Çinə, 6,8 faizi İsrailə, 6,6 faizi Tayvana, 6 faizi Portuqaliyaya, 5,6 faizi Türkiyəyə, 4,7 faizi Almaniyaya, 4,5 faizi Fransaya, 4,4 faizi İspaniyaya, 4,3 faizi Çexiyaya, qalan 24,0 faizi isə digər ölkələrə göndərilmiş məhsullar əsasında formalaşıb.

2017-ci ilin yanvar-fevral aylarında 176,2 milyon dollar dəyərində qeyri-neft məhsulları ixrac edilib ki, bu da ötən ilin müvafiq dövrünə nisbətən real ifadədə 0,3 faiz çoxdur.


**ELAN**

ASAN imza sertifikatının qüvvədə olma müddəti 3 il olduğundan və 2014-cü ilin aprel və növbəti aylarında alınmış sertifikatların etibarlılıq müddəti 2017-cı ilin aprel və növbəti aylarında bitəcəyindən, ASAN imza sertifikatının yenisini almaq üçün qüvvədə olan ASAN imzanız vasitəsilə www.asxm.gov.az/portal/login portalına daxil olub müvafiq ərizəni, müqaviləni və etibarnamələri imzaladıqdan sonra ASAN imza sim kartını dəyişərək vergi ödəyicilərinə xidmət mərkəzlərinə və ya ASAN xidmət mərkəzlərinə yaxınlaşa bilərsiniz.

ASAN imza ilə əlaqədar əlavə sualınız yaranarsa, Vergilər Nazirliyinin 195-1 Çağrı Mərkəzinə, rəsmi internet saytının «Sual-cavab» bölməsinə www.taxes.gov.az/www.taxes/faq/sual.html və www.asxm.gov.az internet ünvanına müraciət edə bilərsiniz.

**Vergilər Nazirliyinin Asan Sertifikat Xidmətləri Mərkəzi**


# Müştərilər üçün yeni xidmət:




## Azərbaycan bankları xarici ölkələrdə alış-veriş zamanı ƏDV-nin qaytarılmasını təmin edən xidmətə inteqrasiya olunub

Aprel ayının 10-dan etibarən Bakıda keçiriləcək «Bakı Ticarət Festivalı» («Baku Shopping Festival») çərçivəsində müştərilərə xidmət göstərəcək banklar müəyyənləşib. Maliyyə Bazarlarına Nəzarət Palatası tərəfindən «Paşa Bank», «Bank Silk Way», «Azərbaycan Sənaye Bankı», «Kapital Bank» və «Yapı Kredi Bank Azərbaycan» «Tax free» (ticarət əməliyyatlarının aparılması zamanı əlavə dəyər vergisinin (ƏDV) geri qaytarılması) təmin edəcək müvəkkil banklar seçilib.

Palatadan verilən məlumata görə, festivalın keçirildiyi müddət ərzində bank xidmətlərinin və valyutadəyişmə əməliyyatlarının fasiləsiz fəaliyyəti təmin olunacaq. Müştərilərə qeyri-iş günləri də xidmət göstərəcək banklar təkcə ticarət festivalları zamanı deyil, digər dövrlərdə də «Tax free» ilə əlaqədar aparılan əməliyyatları həyata keçirmək üçün elektron-bankçılıq və onlayn ödəmələr sistemlərini fasiləsiz aktiv vəziyyətə gətiriblər. Eyni zamanda, Azərbaycan bankları yerli vətəndaşların xarici ölkələrə səfərləri zamanı apardıqları ticarət əməliyyatlarına görə geri qaytarılan vəsaitin əldə olunmasını təmin edən «TaxFree4U» xidmətinə qoşulublar. Avropa Birliyi tərəfindən tətbiq olunan bu layihə «Visa» və «MasterCard»ın plastik kartları vasitəsilə həyata keçirilən «Tax free» əməliyyatlarını tənzimləyir. Azərbaycan Banklar Assosiasiyasının prezidenti Zakir Nuriyev hesab edir ki, banklar «Tax free» sisteminə uyğun olaraq müasir bank çeşidlərinə üstünlük verməkdədir. Artıq ölkəmizdə fəaliyyət göstərən bir neçə banka məxsus plastik kartlar «TaxFree4U» xidmətini dəstəkləyir.

### Yeni xidmətin özəllikləri

«TaxFree4U» xidməti Avropa Birliyinin qeyri-rezidentləri üçün alış-veriş zamanı ƏDV-nin tez bir zamanda qaytarılmasını təmin edən və ən aşağı komisyon haqqına malik innovasiya xidmətidir. Xidmət Azərbaycan vətəndaşlarının xarici ölkələrdə alış-veriş etməsi zamanı xərclədikləri pulların geri qaytarılmasını təmin edir. Belə ki, Avropanın 6 ölkəsində (Almaniya, Böyük Britaniya, Fransa, İtaliya, Finlandiya və İspaniya) ƏDV ödəyicisi kimi qeydiyyatdan keçmiş şəxslərin satış nöqtələrində alış-veriş edərkən, hava limanlarında növbə gözləmədən, əlavə sənədlər təqdim etmədən ƏDV vergisini plastik kartlarla geri alırlar. Bu xidmət vasitəsilə ƏDV-nin qaytarılması prosesini hazırda bazarda mövcud olan digər analoji variantlarla müqayisədə daha asan həyata keçirmək mümkündür. «TaxFree4U» xidmətinə qoşulan müştərinin alış-veriş zamanı «Tax free» bəyannamə formasını gözləməsinə ehtiyac qalmır, mağaza, ticarət obyekti müştəriyə sadəcə qəbz verir. Həmin qəbzin şəkilləri kart sahibinin telefonundakı «mobil application» versiyası vasitəsilə müvafiq ünvana təqdim olunur. Bu prosesə həmin xidmətin operatoru olan Böyük Britaniyanın «Taxfree4» şirkəti tərəfindən nəzarət edilir.

### «TaxFree4U» xidmətinə qoşulma qaydası

Bunun üçün müştəri smartfon telefonunda xüsusi mobil applikasiya versiyasını («AppStore» və yaxud «Google-Play»dən «taxfree4u» mobil əlavəni) yükləməklə qeydiyyatdan keçməlidir. Bunun üçün plastik kartı aldıqları banka yaxınlaşıb «TaxFree4U» xidməti çərçivəsində promokod almalı, qeydiyyatdan keçərək həmin proqram vasitəsilə müvafiq məlumatları «Taxfree4» şirkətinə göndərməlidir. «TaxFree4U»nun mobil applikasiyasına qoşulmuş müştəri xarici ölkədə alış-veriş barədə aparılan əməliyyatları, ona hava limanında verilən «Tax free» qəbzlərini mobil versiya üzrə «Taxfree4» şirkətinə təqdim edir, ölkəyə döndükdən sonra isə 48 saat ərzində ƏDV onun plastik kart hesabına oturur.

**E.CƏFƏRLİ**



# Azərbaycanın vergi islahatları beynəlxalq təşkilatlar tərəfindən yüksək qiymətləndirilir

Vergilər Nazirliyinin Dünya Bankının (DB) nümayəndə heyəti ilə təşkil etdiyi görüşdə DB-nin Azərbaycan üzrə iqtisadçısı Nadir Ramazanov, bankın əməliyyatlar üzrə analitiki Nigar Sadıqova, Prezident Administrasiyasının baş məsləhətçisi Fərid Əliyev, İqtisadi İslahatların Təhlili və Kommunikasiya Mərkəzinin icraçı direktoru Vüsal Qasımlı, DB-nin tapşırıq qrupu rəhbəri, dövlət sektoru üzrə baş mütəxəssis Racul Avasti, bankın məsləhətçisi Li Börns, eləcə də Vergilər Nazirliyinin yüksək vəzifəli şəxsləri iştirak etmişlər.



***Vergilər nazirinin müavini, 3-cü dərəcəli dövlət vergi xidməti müşaviri İlkin Vəliyev*** qonaqları salamlayaraq onlara son illərdə ölkəmizin vergi sistemində aparılan islahatlar barədə geniş məlumat vermişdir. Bildirilmişdir ki, milli iqtisadiyyatın əsas sahələri üzrə Strateji Yol Xəritəsində müəyyənləşdirilmiş vəzifələrin yerinə yetirilməsi və vergi islahatları fonunda vergi inzibatçılığının bütün sahələrinin təkmilləşdirilməsində ciddi uğurlar əldə olunmuşdur: «Vergi Məcəlləsində və bir sıra normativ-hüquqi aktlarda edilmiş dəyişikliklər, əsasən, vergi ödəyicilərinin hüquqlarının və vergi potensialının genişləndirilməsi, eləcə də ölkə iqtisadiyyatına investisiyaların cəlb olunmasını əhatə edir. Vergi hüquqlarının genişləndirilməsi baxımından, dəyişikliklər beynəlxalq təcrübəyə uyğun aparılır. Könüllü vergi açıqlaması sisteminin tətbiqi, artıq ödənilmiş vergilərin qaytarılması üçün müəyyən olunmuş gün sayının azaldılması, transfer qiymətlərinin tətbiqi kimi məsələlər «Azərbaycan Respublikasının milli iqtisadiyyat perspektivi üzrə Strateji Yol Xəritəsi»ndə də öz əksini tapmışdır. Burada məqsəd, əsasən, kiçik və orta sahibkarlığın dəstəklənməsi olduğundan həm vergi yoxlamalarının sayının optimallaşdırılması, həm də kiçik və orta sahibkarlara dəstəklə bağlı Vergilər Nazirliyində bir sıra struktur dəyişiklikləri aparılmışdır».

Qeyd edilmişdir ki, Vergilər Nazirliyi tərəfindən yeni struktur müəyyənləşdirilərkən iri, orta və kiçik vergi ödəyiciləri təsnifatı nəzərə alınmışdır və qruplaşdırılan vergi ödəyicilərinə fərdi yanaşılır. Məsələn, orta sahibkarlara münasibətdə daha çox partnyorluq münasibətlərinə diqqət yetirilməsi, iri vergi ödəyiciləri ilə mütəmadi iş aparılması əsas hədəf kimi müəyyənləşdirilmişdir.

*Orta sahibkarlara münasibətdə daha çox partnyorluq münasibətlərinə diqqət yetirilməsi, iri vergi ödəyiciləri ilə mütəmadi iş aparılması əsas hədəf kimi müəyyənləşdirilmişdir*

Nazir müavini konkret faktlar göstərərək qeyd etmişdir ki, kiçik və orta sahibkarlığın inkişafına dəstək üçün son üç ayda keçirilən yoxlamaların sayı əvvəlki aylarla müqayisədə iki dəfədən çox azaldılmışdır. İndi yoxlama keçirilərkən, ilk növbədə, risklər nəzərə alınır. Kiçik və orta sahibkarlıq təmsilçiləri ilə partnyorluq əlaqələrinin qurulması üçün isə vergi partnyorluğu strukturları yaradılmışdır.

İştirakçıların nəzərinə çatdırılmışdır ki, qlobollaşma prosesində dünya ölkələrindəki vergi sistemləri bir-birinə uyğunlaşdırılmalıdır: «Vergilər Nazirliyi tərəfindən qanunvericiliyə dəyişikliklər sırf Avropa İttifaqının direktivləri əsasında aparılmışdır. Digər ölkələrdə vergitutma sahəsində aparılan islahatlar izlənilmiş və buna uyğun olaraq təkliflər verilmişdir. Bu islahatlar çərçivəsində transfer qiymətinin tətbiqi, vergi öhdəliklərinin əvvəlcədən müəyyən edilməsi, könüllü vergi açıqlaması kimi beynəlxalq təcrübədə istifadə olunan üsullar Vergi Məcəlləsinə daxil edilmişdir». Bildirilmişdir ki, milli iqtisadiyyatın əsas sahələri üzrə Strateji Yol Xəritəsi əsasında Vergilər Nazirliyi tərəfindən 2017-ci il üçün iş planı tərtib olunmuşdur.

*Transfer qiymətinin tətbiqi, vergi öhdəliklərinin əvvəlcədən müəyyən edilməsi, könüllü vergi açıqlaması kimi beynəlxalq təcrübədə istifadə olunan üsullar Vergi Məcəlləsinə daxil edilmişdir*

***İqtisadi İslahatların Təhlili və Kommunikasiya Mərkəzinin icraçı direktoru Vüsal Qasımlı*** 12 sənəddən ibarət olan Strateji Yol Xəritəsinin milli iqtisadiyyat perspektivini əhatə etdiyini və konkret istiqamətlərin müəyyənləşdirildiyini vurğulamışdır: «Bunlardan biri fiskal və monetar siyasətin kombinasiyasıdır. Bu, milli iqtisadiyyat perspektivində nəzərdə tutulmuş biznes mühitinin yaxşılaşdırılması istiqaməti üzrə vergi islahatları ilə bağlı xeyli konseptual məsələləri əhatə edir. Burada ən əsas məsələ ondan ibarətdir ki, Azərbaycanda qeyri-neft sektorundan əldə olunan gəlirlər bütövlükdə büdcənin cari xərcləri ilə tarazlaşdırılmalı, büdcənin cari xərclərini qarşılamaq imkanlarında olmalıdır. Bu baxımdan, bizim üçün ortamüddətli xərclər çərçivəsi həm də nəticə əsaslı büdcə nöqteyi-nəzərindən vergi islahatları üçün ümumi konseptual əsaslar müəyyən edilmişdir».

Bildirilmişdir ki, Strateji yol xəritələrində öz əksini tapmış ikinci əsas məsələ biznes mühitinin yaxşılaşdırılmasıdır: «Ən vacib istiqamət kimi vergilərin optimallaşdırılması nəzərdə tutulub. Vergi sistemi biznesin, iqtisadiyyatın qeyri-neft sektorunun, kiçik və orta sahibkarlığın inkişafı üçün daha əlverişli həddə çatdırılmalıdır. Üçüncü məsələyə gəldikdə, Azərbaycanda bu gün qeyri-neft sektorunun inkişafı ilə bağlı müəyyənləşdirilən islahatlardan biri də ölkədə sənaye parklarının, aqroparkların, texnoparkların, müəyyən klasterlərin yaradılmasıdır. Hər bir belə parkın, xüsusi iqtisadi zonanın çərçivəsində müəyyən vergi güzəştləri olunmuşdur ki, bu da bilavasitə qeyri-neft sektorunun inkişafına istiqamətlənmişdir. Azərbaycanın vergi qanunvericiliyi dünya standartlarına, o cümlədən Avropa təcrübəsinə uyğunlaşdırılmalıdır. Biz təkcə daxili vergi ödəyiciləri ilə qənaətlənməli deyilik, potensial xarici investorların ölkəmizə gəlməsinə, burada investisiya yatırmasına çalışmalıyıq. Bu baxımdan, vergi rejimi dünya standartlarına nə qədər uyğun olarsa, investisiya axını da o qədər çox olacaqdır».

V.Qasımlı sadalanan konseptual məsələlərin hər biri nəzərə alınmaqla Azərbaycanda vergi islahatlarının davam etdirildiyini vurğulamışdır: «2016-cı ildə ölkə Prezidentinin fərmanı ilə vergi islahatlarının əsas istiqamətləri müəyyənləşdirilmişdir. Dünya Bankı, Avropa İttifaqı və digər nüfuzlu qurumlar Azərbaycanın vergi islahatlarını çox yüksək qiymətləndirirlər. Vergi islahatları özü bütövlükdə Azərbaycanda digər islahat istiqamətlərindən - fiskal siyasət, manitar siyasət, real sektorda aparılan işlərlə bilavasitə bağlıdır».

***Dünya Bankının tapşırıq qrupu rəhbəri Racul Avasti*** bildirmişdir ki, o, 34 ölkənin daxil olduğu Avropa və Mərkəzi Asiya regionunda vergi inzibatçılığı və vergi siyasəti sahəsində islahatların aparılması prosesinə rəhbərlik edir: «Azərbaycanla birgə işimizə gəldikdə, Vergilər Nazirliyi, İqtisadi İslahatların Təhlili və Kommunikasiya Mərkəzi ilə birlikdə müzakirələr aparacağıq. Azərbaycana islahatlarla bağlı zəruri kömək göstərməyə hazırıq...

Strateji yol xəritələrinin hazırlanması hərtərəfli düşünülmüş addım, uğurlu təşəbbüsdür. Çox şadam ki, vergi siyasəti sahəsində aparılacaq islahat proqramı bütün iqtisadiyyatı əhatə edən Strateji yol xəritələrinin məqsədləri ilə sıx bağlıdır, mükəmməl şəkildə ona uyğunlaşdırılmışdır».

Bildirilmişdir ki, vergi rejimində biznes mühitinin yaxşılaşdırılmasına yönəldilən dəyişikliklərlə bağlı bəzi məsələlər var ki, onların tezliklə həlli üçün DB tərəfindən məsləhət və şərh verilə bilər. Elə sahələr də var ki, onların daha geniş miqyasda və dərəcədə, daha uzunmüddətli yardıma və dəstəyə ehtiyacı var.

Qeyd edilmişdir ki, vergi güzəştlərinin təyin edilməsi, qeyri-neft sektorunda kəsirin azaldılması, biznes və investisiya mühitinin yaxşılaşdırılması, vergi rejiminin təkmilləşdirilməsi və beynəlxalq standartlara uyğunlaşdırılması, kiçik və orta sahibkarlığa dəstək məsələləri çox yaxşı hədəfə alınsa da, onların arasında müəyyən ziddiyyətlər də yarana bilər: «Son illər dünyanın bir çox ölkələrində fəaliyyət göstərən transmilli şirkətlər çalışdıqları hər bir vergi sisteminin vahid sistemə, vahid beynəlxalq praktikaya cavab verən vergi rejimi olmasını arzu edirlər. Gündəlikdə duran əsas təmayül belədir. Lakin hər bir ölkənin milli vergi rejiminin beynəlxalq vergi rejiminə uyğunlaşdırılması da vergi gəlirlərinin azalması ilə nəticələnə bilər. Çünki beynəlxalq şirkətlər, adətən, öz vergiqoyma bazalarını, ödənilən vergilərin məbləğini maksimum azaltmağa çalışırlar. Dünya Bankı bu istiqamətdə region ölkələrdə bir sıra işlər aparmışdır. Buna Qazaxıstanı misal göstərə bilərik. Sadalanan məsələlərin əksəriyyəti orada da səsləndirilmişdir».

***Vergilər Nazirliyinin Beynəlxalq əməkdaşlıq və maliyyə institutlarında vergi monitorinqi Departamentinin baş direktoru Zaur Fətizadə*** əməkdaşlığa görə təşəkkürünü bildirərək qeyd etmişdir ki, DB ilə işləmək üçün Vergilər Nazirliyində xüsusi işçi qrup yaradılmışdır: «Təsdiqlənmiş tədbirlər planına əsasən, iş prosesində bankın bizimlə qarşılıqlı tərəfdaşlığı, yardım missiyasının vaxtı və mərhələləri müzakirə olunacaq.

Transmilli şirkətlərin fəaliyyəti və bununla əlaqədar vergidən yayınma hallarının aradan qaldırılması ilə bağlı risklərin ətraflı təhlilləri aparılmışdır. Beynəlxalq münasibətlər çərçivəsində OECD-nin BEPS (vergitutma bazasının aşınması və mənfəətin köçürülməsi) layihəsinə uyğun olaraq transfer qiymətlərin tətbiqində müqayisə edilən qiymətlər barədə məlumatların əldə olunması üçün təsirli tədbirlər həyata keçirilməkdədir».

Görüş zamanı qarşılıqlı maraq doğuran bir sıra digər məsələlər ətrafında da fikir mübadiləsi aparılmışdır.

**F.İKRAMQIZI**

# Şəffaf partnyorluq, innovativ xidmətlər, sadə inzibatçılıq

Azərbaycan Respublikası Prezidentinin 4 avqust 2016-cı il tarixli «2016-cı ildə vergi sahəsində aparılacaq islahatların istiqamətlərinin təsdiqi və vergi inzibatçılığınınn təkmilləşdirməsi haqqında» sərəncamının icrası ilə bağlı Vergilər Nazirliyində yaradılan «Yaşıl dəhliz» masaları şəffaf partnyorluq, innovativ xidmətlər və sadə inzibatçılıq prinsipinə əsaslanır və artıq bütün respublikanı əhatə edir. «Yaşıl dəhliz» masaları xidmət, uçot-qeydiyyat, vergi nəzarəti tədbirləri kimi sahələri əhatə edərək, müraciətlərlə birbaşa məşğul olur. Ənənəvi və innovativ xidmətlər partnyor vergi ödəyiciləri üçün fərdi və sürətli aparılır.

### «Yaşıl dəhliz»dən kimlər istifadə edə bilər?

Bunun üçün partnyor vergi ödəyiciləri bir sıra meyarlara cavab verməlidir. Həmin ödəyicilər vergi hesabatlarını Vergi Məcəlləsində nəzərdə tutulmuş müddətlərdə təqdim etməli, vergiləri tam həcmdə və vaxtında ödəməli, muzdlu işçilərinin sayını və əmək haqlarını düzgün bəyan etməli, mühasibat uçotunu beynəlxalq və ya milli standartlara uyğun aparmalı, gücləndirilmiş e-imzaya sahib olmalı, yazışmalarını elektron şəkildə aparmalı, saxta sənədlər (o cümlədən ciddi hesabat sənədləri) qəbul və təqdim etməməli, əmtəəsiz əməliyyatlar aparmamalıdır. Son 3 il ərzində iqtisadi sahədə cinayət törədilməsinə görə barəsində cinayət təqibi (bəraətverici əsaslarla icraatına xitam verilmiş cinayət işləri istisna olmaqla) aparılmamalıdır.

### «Yaşıl dəhliz»ə necə qoşulmaq olar...

Vergilər Nazirliyinin vergi risklərinin təhlili və nəzarəti sahəsində təşkilati və nəzarət tədbirlərini həyata keçirən müvafiq struktur vahid tərəfindən mütəmadi olaraq vergi ödəyicilərinin bu Qaydaların 1.4.1-1.4.7-ci yarımbəndləri ilə müəyyən edilmiş meyarlara uyğunluğu araşdırılır və «Partnyor vergi ödəyicisi statusunun əldə edilməsi barədə» unikal koda malik bildiriş verilir. Meyarlara uyğun gəlmədiyi halda isə onun fəaliyyətinin bu Qaydaların göstərilən meyarlara tam və ya qismən uyğun olmaması barədə məlumat verilir. Partnyor ödəyicilərin Avtomatlaşdırılmış Vergi İnformasiya Sistemində (AVİS) ayrıca uçotu aparılır və məlumat bazası yaradılır. Kuratorları barədə məlumatlar da həmin bazaya daxil edilir.

### «Yaşıl dəhliz» iştirakçılarına verilən üstünlüklər

Partnyor vergi ödəyicilərinə 174 adda, o cümlədən 63 e-xidmət göstərilir. Ənənəvi olaraq şifahi sənəd qəbulu, hazır sənədin verilməsi, SMS məlumatlandırma, eləcə də ünvanlı xidmətlər onların ixtiyarına verilib. İnnovativ olaraq taxes.gov.az, Facebook, Skype, Whatsapp və s. vasitəsilə videobağlantılardan, Tədris Mərkəzində həyata keçirilən xüsusi təlim proqramlarından, onlayn və ənənəvi təlimlər, «dəyirmi masalar», seminar və konfransların təşkilindən, eləcə də «195» Çağrı Mərkəzində xüsusi xətdən istifadə olunur.

Fərdi xidmətlər partnyor-kurator və Vergi ödəyicilərinə xidmət və şəffaf vergi partnyorluğu departamenti tərəfindən göstərilir. «Yaşıl dəhliz» vasitəsilə şifahi xidmətlər, bəyannamələrin tərtibatında və göndərilməsində köməklik, e-xidmətlər, fəaliyyət üzrə ərizələr (arayış, DTA formaları və s.), «ASAN imza» sertifikatının verilməsi kimi xidmətlər həyata keçirilir.

Xidmət mərkəzlərində quraşdırılmış «Yaşıl dəhliz» masaları, Çağrı Mərkəzində ayrıca xətt vasitəsilə müraciətə baxılma müddəti 3 dəfə az olur. Ərazi məhdudiyyəti nəzərə alınmır, xidmət həm vergi orqanlarında, həm də partnyor ödəyicinin ofisində (təsərrüfat subyektində) aidiyyəti struktur vahidi tərəfindən həyata keçirilə bilər.

### Kurator kimdir və onun vəzifəsi nədən ibarətdir?

Kurator aidiyyəti struktur vahidinin partnyor ödəyicisinə təhkim olunmuş şəxsdir. Onun vəzifə və funksiyalarına ünvanlı xidmətlərin göstərilməsi, vergi qanunvericiliyində baş vermiş dəyişikliklərlə bağlı izahatlar və qabaqlayıcı tədbirlərin görülməsi, yazılı müraciətlərin cavablandırılmasını təmin etmək, uyğunsuzluq və ya anlaşılmazlıqların həlli istiqamətində müvafiq tədbirlərin görülməsi, vergi qanunvericiliyinin təkmilləşdirilməsi ilə bağlı təkliflərin partnyorların iştirakı ilə müzakirəsini təşkil etmək və s. kimi işlər daxildir.

### Partnyor ödəyicilərin müraciətlərinə hansı qaydada baxılır?

Müraciətlər vergi orqanı tərəfindən xüsusi nəzarətə götürülür və qanunla müəyyən edilmiş vaxtdan 3 dəfə tez baxılır. Müraciətlərə baxılması zamanı yaranan fikir ayrılıqları partnyor ödəyicinin iş yerində və ya vergi orqanında baxılır, o cümlədən İKT-nin imkanlarından istifadə edilir. Müraciətlə bağlı tərtib edilmiş sənəd partnyor ödəyicinin istəyinə uyğun olaraq vergi orqanından əlbəəl götürülür, poçt vasitəsilə və ya elektron olaraq ünvana göndərilir.

### Partnyor vergi ödəyicisi statusunun ləğvi

Partnyor vergi ödəyicisi statusunu aldıqdan sonra Qaydaların 1.4.1-1.4.7-ci yarımbəndlərində göstərilən meyarlara cavab verməyən partnyor ödəyici aidiyyəti struktur vahid tərəfindən 1 ay müddətində həmin meyarlara cavab verməsi üçün lazımi tədbirlərin görülməsi məqsədilə məlumatlandırılır. Bu müddət bitdikdən sonra meyarlara cavab verməyən vergi ödəyicisinə «Partnyor vergi ödəyicisi statusunun ləğvi barədə» bildiriş təqdim olunur.

**FƏXRİYYƏ**

# Nəzarət tədbirləri analitik məlumatlar, informasiya texnologiyaları və baza məlumatları əsasında aparılır



Müsahibimiz
Vergilər Nazirliyi yanında
Bakı şəhəri Kiçik Sahibkarlıqla
İş Departamentinin
baş direktoru
Sarxan Məmmədovdur

***- Sarxan müəllim, ötən ilin dekabr ayında yaradılmış departamentin əsas vəzifələri nədən ibarətdir?***

- Departament vergi sistemində aparılan genişmiqyaslı struktur islahatları, vergi administrasiyasının təkmilləşdirilməsi və təşkilati strukturunun transformasiyası prosesi çərçivəsində yaradılıb. «Fərdi yanaşma» prinsipi üzərində formalaşdırılmış yeni idarəetmə mexanizminin mühüm tərkib hissələrindən biri də kiçik sahibkarlıq subyektləri ilə ayrıca iş qurmaq, kiçik sahibkarlıq qrupuna fərdi yanaşmanı, eləcə də fiskal və inzibatçılıq yükünün düzgün bölüşdürülməsini təmin etməkdir.

Vergilər Nazirliyinin təsdiq etdiyi əsasnamənin müddəalarına görə, departamentin funksiyalarına kiçik sahibkarlıq subyektlərində uçotun dəqiqləşdirilməsi, xidmət çeşidlərinin artırılması, kiçik sahibkarlara münasibətdə əks-əlaqə prinsipinin tətbiq olunması, onların inzibati yükünün azaldılması ilə könüllü əməletmə səviyyəsinin artırılması, dövriyyələrin leqallaşdırılmasının təşviq edilməsi ilə real vergi potensialının müəyyən olunması kimi vəzifələr aid edilib. Bundan başqa, müəyyən olunmuş risk dərəcələri əsasında zəruri hallarda vergi nəzarəti tədbirlərinin keçirilməsi, əməkdaşların vergi sahəsində bilik və bacarıqlarının artırılması və s. də departamentin prioritetləridir.

***- Vergi ödəyicilərinin uçotu və xidmətin çeşidlərinin artırılması istiqamətində hansı işlər görülür?***

- Dövlət idarəetmə sistemində aparılan islahatlar, sahibkarlığın geniş dəstəklənməsi, biznes mühitinin cəlbediciliyinin artırılması işgüzar fəallığın yüksəlməsinə şərait yaradır. Bu, xüsusilə kiçik sahibkarlıqla məşğul olmaq istəyənlərin sayında da özünü göstərir. 2017-ci ilin ilk üç ayında departamentin qeydiyyatında olan vergi ödəyicilərinin sayı 6430 vahid artaraq 242.522-yə çatıb. 2017-ci ilin ilk rübü ərzində departament tərəfindən 3031 təsərrüfat subyekti, 1668 nəzarət-kassa aparatı, 522 POS-terminal qeydiyyata alınıb.

Departamentin qarşısında duran mühüm vəzifələrdən biri vergi ödəyicilərinin öz biznesini inkişaf etdirməsi, dövriyyələrini artırması, tədricən orta sahibkarlıq subyektinə çevrilməsi üçün onlara maksimum dəstək göstərilməsidir. Bu, sahibkarlığın inkişafı ilə yanaşı, vergi daxilolmalarının potensial artımı üçün də baza təşkil edir.

2017-ci ilin 1-ci rübündə 2715 vergi ödəyicisinin uçot yeri Vergilər Nazirliyi yanında Lokal gəlirlər departamentinə dəyişdirilib ki, bunların da 334-ü ƏDV ödəyicisi, 97-si 6% və 8% dərəcə ilə sadələşdirilmiş vergi dərəcəsi üzrə qeydiyyata alınmış vergi ödəyiciləri olub. Bu bir daha göstərir ki, vergi ödəyicilərinin iqtisadi və maliyyə vəziyyəti yaxşılaşmağa doğru dəyişməkdədir.

Vergi ödəyicilərinin uçotunun dürüstləşdirilməsi sahəsində də işlər davam etdirilir. 2017-ci ilin mart ayı ərzində departamentin təşəbbüsü əsasında əks-əlaqə prinsipi tətbiq edilməklə 1071 vergi ödəyicisinin və onlara məxsus təsərrüfat subyektlərinin vergi uçotuna alınmasına kömək göstərilib.

***- Vergi ödəyiciləri arasında könüllü əməletmə səviyyəsinin yüksəldilməsi, dövriyyələrin leqallaşdırılması yolu ilə real vergi potensialının artırılması sahəsində işlər necə gedir?***

- Könüllü əməletmə səviyyəsinin yüksəldilməsi məqsədilə vergi ödəyicilərinə göstərilən xidmətlərin çeşidinin və keyfiyyətinin artırılmasına xüsusi diqqət verilir. İlk növbədə, vergi ödəyicilərinin məlumatlılıq səviyyəsinin yüksəldilməsi, vergi qanunvericiliyinə edilən dəyişikliklər və müxtəlif risk istiqamətlərini əhatə edən məlumatların ötürülməsi sahəsində işlər görülür. 2017-ci ilin birinci rübündə vergi ödəyicilərinə 370.149 bildiriş göndərilib, eləcə də 9045 vergi ödəyicisinə ünvanlı xidmətlər göstərilib.

Fəaliyyət sahələri nəzərə alınmaqla vergi qanunvericiliyinə edilən dəyişikliklər, o cümlədən «Nağdsız hesablaşmalar haqqında» və «Vergi ödəyicilərinin 2017-ci ilin 1 yanvar tarixinə mövcud olan vergi borclarının tənzimlənməsi haqqında» qanunlar barədə vergi ödəyicilərinin məlumatlandırılması məqsədilə müəyyən edilmiş zonalar üzrə 2000-dən çox vergi ödəyicisinin iştirakı ilə 26 görüş keçirilib.

Fərdi yanaşma prinsipi ilə vergi ödəyicilərinə daha səmərəli xidmətlərin göstərilməsi və könüllü əməletmə səviyyəsinin yüksəldilməsi üçün həyata keçirilən tədbirlər artıq öz nəticəsini verib. Bu ilin ilk üç ayında vəsaitlərin 90,9 faizi könüllü əməletmə və vergi ödəyicilərinə göstərilən xidmətlər sayəsində dövlət büdcəsinə daxil olub.

Könüllü əməletmə səviyyəsinin artmasına təsir göstərən amillərdən biri də 2017-ci ildən fərdi əməklə məşğul olan şəxslərin sabit vergiyə cəlb olunmasıdır. Vergi Məcəlləsinə edilmiş dəyişikliyə əsasən, bir sıra fəaliyyət növləri ilə fərdi qaydada məşğul olan fiziki şəxslər aylıq sabit məbləğdə sadələşdirilmiş vergi ödəyirlər. Onlar kiçik həcmdə gəlirlərə malik, muzdlu işçi cəlb etmədən müəyyən fəaliyyət növləri ilə məşğul olan fiziki şəxslərdir. Vergi yükünün əhəmiyyətli şəkildə azalmasını və bəyannamələrin təqdim edilməsi zərurətinin aradan qaldırılmasını nəzərdə tutan bu yenilik fərdi əməklə məşğul olan şəxslərdə maraq doğurur. 2017-ci ilin birinci rübündə 142 vergi ödəyicisinə sabit verginin ödənişini təsdiq edən qəbzlər verilib.

Real vergi potensialının müəyyən edilməsi və vergi daxilolmalarının təmin edilməsi sahəsində görülmüş işlər nəticəsində kiçik sahibkarlıq subyektləri tərəfindən yanvar-mart ayları ərzində dövlət büdcəsinə 21 milyon 481,3 min manat vəsait səfərbər olunub ki, bu da ötən ilin müvafiq dövrü ilə müqayisdə 23% çoxdur.

**Departamentin qarşısında duran mühüm vəzifələrdən biri vergi ödəyicilərinin öz biznesini inkişaf etdirməsi, dövriyyələrini artırması, tədricən orta sahibkarlıq subyektinə çevrilməsi üçün onlara maksimum dəstək göstərilməsidir**

***- Vergi ödəyicilərində risk dərəcələrinin müəyyən edilməsi də maraq doğuran məsələlərdəndir....***

- Vergi ödəyicilərinin təqdim etdikləri bəyannamələrdən və informasiya bazasından istifadə etməklə risk meyarlarının qruplaşdırılması aparılır, keçiriləcək vergi nəzarəti tədbirlərinin əhatə dairəsi müəyyən edilir. Ümumiyyətlə, kiçik sahibkarlıq subyektlərinə münasibətdə nəzarət tədbirləri analitik məlumatlar, informasiya texnologiyaları və baza məlumatları əsasında aparılır. Məsələn, 2017-ci ilin 1-ci rübündə risklərin qiymətləndirilməsi nəticəsində 25.706 vergi ödəyicisində vergi potensialı olan 61.839 risk müəyyən edilib. Vergi nəzarəti tədbirlərinin minimallaşdırılması üçün xidmət fəaliyyəti üzrə əks-əlaqə prinsipi tətbiq edilməklə məlumatlandırma işləri həyata keçirilib, vergi ödəyiciləri tərəfindən kənarlaşmaların aradan qaldırılması sahəsində əhəmiyyətli işlər görülüb.

Risklərin aradan qaldırılmasını təmin etməyən 2731 vergi ödəyicisinə kameral vergi yoxlaması ilə 3 milyon 955,7 min manat hesablama aparılıb, 26 vergi ödəyicisində xronometraj metodu ilə müşahidələr keçirilib, 66 vergi ödəyicisində pul vəsaitlərinin və malların uçota alınmaması ilə əlaqədar, 274 vergi ödəyicisində isə səyyar vergi yoxlaması ilə bağlı vergi nəzarəti tədbirləri keçirilib.

Könüllü əməletmə səviyyəsinin yüksəldilməsi üçün vergi ödəyiciləri ilə keçirilən tədbirlər nəticəsində cari ilin birinci rübündə dövlət büdcəsinə daxil olmuş 21 mıiyon 481,3 min manat vəsaitin cəmi 9,1%-i nəzarət tədbirləri üzrə təmin edilib.

# Nağdsız ödənişlərin stimullaşdırılması bəhrəsini verməkdədir

Azərbaycan Respublikası Mərkəzi Bankının məlumatına əsasən, 2017-ci ilin yanvar-fevral ayları ərzində ölkədə fəaliyyət göstərən POS-terminallar vasitəsilə aparılan nağdsız əməliyyatların həcmi 168 milyon manat təşkil edib, tranzaksiyalar üzrə isə 2414 min əməliyyat həyata keçirilib. Nağdsız əməliyyatların həcmi 2016-cı ilin müvafiq dövrü ilə müqayisədə 43,6% artıb, onun 117 mln. manatı POS-terminallar, 51 mln. manatı isə ATM-lər vasitəsilə aparılıb.

Hazırda paytaxt ərazisində təxminən 40 min, bölgələrdə isə 35 minə yaxın POS-terminal fəaliyyət göstərir, bankomatların sayı isə 2500 ədəd təşkil edir. İqtisadçı-ekspert Rəşad Əliyev hesab edir ki, 2017-ci il yanvarın 1-dən qüvvəyə minən «Nağdsız hesablaşmalar haqqında» Qanun və Vergi Məcəlləsinə edilən əlavə və dəyişikliklər nağd aparılan əməliyyatların azalmasına və nağdsız ödənişlərin artmasına mühüm təsir göstərib. Qanunvericiliyin tələblərinə əsasən, cari il yanvarın 1-dən banklardan nağd pul vəsaitlərinin çıxarılmasının məhdudlaşdırılması və nağdsız ödəmələrin stimullaşdırılması məqsədilə hüquqi şəxslər və fərdi sahibkarlar tərəfindən pul vəsaitlərinin nağd qaydada bank hesablarından çıxarılmasına görə banklar və poçt rabitəsinin milli operatorları tərəfindən 1 faiz dərəcəsi ilə sadələşdirilmiş vergi tutulur. Qeyd edək ki, bu qaydalar adi vətəndaşlara deyil, yalnız sahibkarlıq fəaliyyəti ilə məşğul olan vergi ödəyicilərinə - həm sadələşdirilmiş, həm də ƏDV ödəyiciləri olan şəxslərə tətbiq olunur. Eyni zamanda, müəssisə və təşkilatlarda şəffaflığın təmin edilməsi məqsədilə işçilərə əmək haqlarının nağd qaydada verilməsi qadağan olunub, qanunvericiliyə əməl etməyən işəgötürən təşkilatlara cərimə tətbiq olunması nəzərdə tutulub. Bütün bu amillər ölkədə əlavə plastik kartların alınmasına və istifadəsinə səbəb olub, nəticədə nağdsız əməliyyatların həcmi artıb.

İqtisadçı hesab edir ki, ölkədə fəaliyyət göstərən bankomat, ATM və POS-terminalların sayı ödənişlərin nağdsız qaydada aparılması üçün kifayət edir. Aparılan inzibati tədbirlər nağdsız ödəmələrin təmin olunması üçün infrastrukturun tam formalaşdığını göstərir: «Amma bununla belə, nağdsız ödəmə mədəniyyəti insanlarda vərdiş halına çevrilməlidir. Stimullaşdırma və təşviqat xarakterli tədbirlər də qarşıya qoyulan məqsədlərə çatmaqda mühüm rol oynaya bilər. Bu tədbirlər qarşıdakı dövrdə nağdsız ödənişlərin inkişafına, bank sektorunda əlavə likvid vəsaitlərin formalaşdırılmasına da öz müsbət təsirini göstərəcək, qeyri-leqal əmək bazarının rəsmiləşməsinə, işçilərlə əmək müqavilələri bağlanaraq onlara maaş kartlarının verilməsinə, mühasibatlığın şəffaflaşdırılmasına, müəssisələrin öz dövriyyələrini düzgün göstərmələrinə səbəb olacaq. Bu da öz növbəsində ölkə iqtisadiyyatında maliyyə intizamının gücləndirilməsinə və vergitutma bazasının genişləndirilməsinə öz töhfəsini verəcək».

Vergilər Nazirliyinin Vergi qanunvericiliyinin icrasına nəzarət departamentinin baş direktoru Toğrul Quliyev bildirib ki, «Nağdsız hesablaşmalar haqqında» Qanunun tələblərinə əməl edilməsinə nəzarət məqsədilə müvafiq tədbirlər görülməkdədir. Bu məqsədlə vergi ödəyicilərinin bank hesablarından çıxarılmış vəsaitlərin məbləği, sığorta əməliyyatları, kommunal xidmətlər göstərən təşkilatların fəaliyyəti və digər əlaqəli məlumatlar əldə edilir, riskli vergi ödəyiciləri müəyyən olunaraq onlarla fərdi qaydada iş aparılır. Risk modeli əsasında aparılan nəzarət tədbirləri çərçivəsində vergi ödəyicilərinin məlumatları yoxlanılır. Hazırda vergi ödəyicilərinin bank hesablarından nağd şəkildə çıxarılan vəsaitlərdən banklar tərəfindən 1% dərəcə ilə vergi tutulur və bu barədə vergi orqanlarına hesabat təqdim edilir. Həmin hesabatlarda vergi ödəyiciləri tərəfindən nağdlaşdırılmış vəsaitin məbləği nəzərdən keçirilir, əgər bu məbləğ şübhə yaradırsa, belə halda qanunun tələblərinə əməl edilib-edilməməsini yoxlamaq məqsədilə onların fəaliyyəti nəzarətə götürülür.

**ELBRUS**



Vergi ödəyicilərinin bank hesablarından nağd şəkildə çıxarılan vəsaitlərdən banklar tərəfindən 1% dərəcə ilə vergi tutulur və bu barədə vergi orqanlarına hesabat təqdim edilir




# Qiymətli kağızlar bazarında artım qeydə alınıb

Bu ilin ilk rübü ərzində ölkənin qiymətli kağızlar bazarında artım müşahidə olunub, pozitiv kəmiyyət göstəriciləri ilə yanaşı, önəmli keyfiyyət dəyişiklikləri qeydə alınıb. Maliyyə Bazarlarına Nəzarət Palatasının mətbuat xidmətindən bildiriblər ki, yanvar-mart ayları ərzində qiymətli kağızlar bazarı ötən ilin müvafiq dövrü ilə müqayisədə 33 faiz artaraq 2,280 milyard manat təşkil edib. Hesabat dövrü ərzində qiymətli kağızların təkrar bazarı 89 faiz artaraq 1,1 milyard manata çatıb. Korporativ qiymətli kağızlar bazarının 11 faiz azalması fonunda dövlət qiymətli kağızlar bazarı 84 faiz artıb.

Bu müddətdə real sektor təmsilçilərinin və maliyyə institutlarının fond bazarı vasitəsilə öz kapitallarını artırmaq təşəbbüsləri korporativ qiymətli kağızlar bazarının səhm seqmentində əməliyyatların həcminin 8 dəfə artmasına səbəb olub. Ümumilikdə, səhmlərin ilkin bazarında bağlanan əqdlərin məbləği əvvəlki hesabat dövrü ilə müqayisədə 58 dəfədən çox artaraq 777 milyon manata çatıb. Hesabat dövründə dövlət qiymətli kağızları bazarında əqdlərin həcmi ötən illə müqayisədə 84 faiz artaraq 284 milyon manat təşkil edib. Bunun 207 milyon manatını Mərkəzi Bankın notları ilə ilkin bazarda bağlanan əqdlər təşkil edib. Bu dövr ərzində 72 milyon manat məbləğindən artıq qısa və ortamüddətli dövlət istiqrazları yerləşdirilib. Qısamüddətli dövlət istiqrazları üzrə orta çəkili gəlirlilik 16,58 faiz təşkil edib.

Birinci rüb ərzində Bakı Fond Birjasının törəmə maliyyə alətləri platformasında ümumi məbləği 903 milyon manat olan valyuta əsaslı və ümumi dəyəri 57 milyon manat olan əmtəə əsaslı törəmə maliyyə alətləri ilə ticarət əməliyyatları həyata keçirilib. Ümumilikdə, törəmə maliyyə alətləri bazarının ümumi həcmi 961 milyon manat olub və bazarda keçən ilin müvafiq dövrü ilə müqayisədə 2,4 dəfə artım müşahidə edilib.

## ELAN

**Hörmətli vergi ödəyicisi!**

Fəaliyyətiniz zamanı vergi orqanı əməkdaşları tərəfindən korrupsiya və digər hüquqpozma hallarına yol verildiyi ilə rastlaşdıqda, aşağıdakı imkanlardan istifadə etməklə, vergi orqanına müraciət edə bilərsiniz:

* Vergilər Nazirliyinin rəsmi internet səhifəsində (www.taxes.gov.az) «Onlayn müraciətlər» bölməsinin «Vergi orqanı əməkdaşlarının fəaliyyətində korrupsiya və digər hüquqpozma halları barədə məlumat ver» alt bölməsinə;
* Vergilər Nazirliyinin poçt ünvanına və ya Daxili təhlükəsizlik departamentinə üzərində «MƏXFİ - Daxili təhlükəsizlik departamentinə» qeydi olan məktubları göndərməklə.

  Ünvan: AZ1073, Bakı şəhəri, Landau küçəsi 16, Vergilər Nazirliyi;
* Daxili təhlükəsizlik departamentinə gəlməklə və məlumatı şəxsən (şəxsiyyətinizi təsdiq edən sənədlə) təqdim etməklə.

  Ünvan: AZ1073, Bakı şəhəri, Landau küçəsi 16, Vergilər Nazirliyi, Daxili təhlükəsizlik departamenti;
* Vergilər Nazirliyinin Çağrı Mərkəzinə (195-1)

# Sahibkarlığın inkişafı ilə bağlı yeni hədəflər

Azərbaycanın perspektiv inkişaf hədəflərini və istiqamətlərini müəyyənləşdirmək, onların həyata keçirilməsini təmin etmək məqsədilə 12 istiqamətdə Strateji Yol Xəritəsi təsdiq olunub. Sənəddə başlıca istiqamətlərdən biri kiçik və orta sahibkarlıq (KOS) sahəsində stimullaşdırıcı vasitələrin tətbiqinin davam etdirilməsi, biznes mühitinin daha da yaxşılaşdırılması, sahibkarlığın inkişafının təmin olunmasıdır.

Strateji yol xəritələrində KOS subyektlərinin fəaliyyətində yoxlama və lisenziyalaşdırma mexanizmlərinin təkmilləşdirilməsinə, stimullaşdırıcı islahatların davam etdirilməsinə xüsusi diqqət yetirilir. Qarşıya qoyulmuş vəzifələrin həyata keçirilməsi üçün İqtisadiyyat Nazirliyi tədbirlər planı hazırlayıb.

Tədbirlər planında prioritet istiqamətlər bunlardır:

- sahibkarlıq fəaliyyətini tənzimləyən normativ-hüquqi bazanın təkmilləşdirilməsi;
- sahibkarlığın, xüsusilə regional sahibkarlığın maliyyə təminatının təkmilləşdirilməsi, bu istiqamətdə məqsədli dövlət maliyyələşməsi ilə yanaşı, alternativ maliyyə mənbələrinin daha da aktivləşdirilməsi;
- kiçik və orta sahibkarların maliyyəyə çıxış imkanlarının daha da artırılması, kreditlərin sığortalanması mexanizminin hazırlanması;
- ölkədə innovativ və yüksək texnologiyalar əsasında rəqabət qabiliyyətli sənaye istehsalının inkişafı üçün münbit şərait yaratmaqla bu sahədə sahibkarlığın dəstəklənməsi;
- istehsal sahibkarlığının dəstəklənməsi üzrə dünya təcrübəsində müvəffəqiyyətlə tətbiq edilən təşkilati modellərin, o cümlədən sənaye parkları, biznes-inkubatorlar və digər iqtisadi layihələrin davam etdirilməsi;
- kiçik və orta sahibkarlığın stimullaşdırılması məqsədilə tarazlı vergi, gömrük, tarif siyasətinin həyata keçirilməsi;
- dövlət-sahibkar münasibətlərinin digər institusional mexanizmlərinin təkmilləşdirilməsi;
- kiçik, orta və iri müəssisələr arasında istehsal-kooperasiya əlaqələrinin genişləndirilməsi;
- sahibkarların ixrac imkanlarının genişləndirilməsi üçün mütəmadi tədbirlərin davam etdirilməsi.

### Strateji hədəf kiçik və orta sahibkarlığın ÜDM-dəki payını artırmaqdır

Dünya Bankının hesablamalarına görə, inkişaf etmiş ölkələrdə KOS-un xüsusi çəkisi 50%-dir, məşğulluqda isə 60%-dən yüksəkdir. İqtisadçı ekspert Vüqar Bayramovun fikrincə, ölkəmizdə KOS-un iqtisadiyyatda payı olduqca az, cəmi 3 faiz təşkil edir: «İnkişaf etmiş ölkələrin təcrübəsi göstərir ki, məşğulluğun təmin edilməsində KOS-un böyük rolu var. Gələcəkdə Azərbaycan iqtisadiyyatında bu sektorun payının artması ölkə üçün daha dayanıqlı və şaxələnmiş iqtisadiyyat vəd edir».

Yol xəritəsində sahibkarlığın inkişafı ilə bağlı nəzərdə tutulan tədbirlərin yerinə yetirilməsi sahibkarların daxili və xarici bazarlara çıxışının və rolunun artmasına, xüsusilə də KOS-un iqtisadiyyatda aparıcı qüvvəyə çevrilməsinə səbəb ola bilər. Dünya Bankının mütəxəssisləri hesab edirlər ki, Azərbaycanda bu strateji hədəflərə çatmaq üçün iqtisadi potensial və imkanlar mövcuddur. Xüsusilə də qeyri-neft sektorunda və regionlarda böyük potensial vardır. Bu sahədəki inkişaf meyillərinin və beynəlxalq təcrübənin təhlili göstərir ki, ölkəmizdə sahibkarlığın inkişafı ilə bağlı əldə olunmuş nailiyyətlərin möhkəmləndirilməsi üçün biznes mühitinin əlverişliliyinin artırılması, KOS-un inkişafına dəstək verilməsi siyasəti davam etdirilməlidir.

Azərbaycan hökumətinin və beynəlxalq maliyyə-iqtisadiyyat təşkilatlarının yaxın və ortamüddətli proqnozlarına əsasən, yeni iqtisadi inkişaf modelində KOS-un rolu əhəmiyyətli dərəcədə artacaq. Proqnozlara görə, respublikamızda KOS-un payı ümumi daxili məhsulda (ÜDM) 15%-dən, məşğulluqda isə 20%-dən yüksək olacaq. 2025-ci ildən sonrakı strateji hədəf isə ÜDM-in ən azı 60%- nin KOS hesabına təmin edilməsidir.

Yeni iqtisadi inkişaf modelində KOS-un rolu




### Vergi siyasəti sahibkarlara yeni yanaşmanı təmin edir

İslahatlar çərçivəsində sahibkarlıq subyektlərinin rəsmi qeydiyyatını təşviq etmək və vergi bazasını genişləndirmək məqsədilə vergi əməletməsi xərclərinin azaldılması təşəbbüsləri nəzərdən keçiriləcək. İcra olunan islahatlarla yanaşı, iqtisadi fəaliyyətin stimullaşdırılması, prioritet sektorlarda inkişafın təşviqi və xarici investisiyanın cəlb edilməsi üzrə fərqlənən vergi qaydalarının təsiri davamlı olaraq qiymətləndiriləcəkdir. İslahatların səmərəli icrasını təmin etmək üçün proses ərzində müvafiq hesabatlılıqla yanaşı, vergi inzibatçılığı kimi digər amillərin rolu da təhlil ediləcək və müvafiq formada nəzərə alınacaqdır. Vergidən əldə olunan vəsaitlərin dövlət proqramları vasitəsilə iqtisadi artıma və iş yerlərinin açılmasına töhfə verən şirkətləri stimullaşdırmaqla iqtisadi inkişafa dəstək verən sahələrə investisiya olunması imkanları təhlil ediləcəkdir.

Vergilər Nazirliyinin Vergi risklərinin təhlili və nəzarəti departamentinin baş direktoru Natiq Şirinovun sözlərinə görə, sahibkarlara yanaşmanın tamamilə dəyişməsi və onlarla münasibətlərin müasir dövrün tələblərinə uyğun qurulması qarşıda duran əsas vəzifələrdəndir. Bu məqsədlə sahibkarlıq sinfinə münasibət müxtəlif klasterlər üzrə bölgü əsasında tənzimlənəcək. Artıq bu istiqamətdə 2017-ci il yanvar ayından etibarən vergi inzibatçılığının diferensiallaşdırılması yolu ilə daha səmərəli, çevik, ədalətli, şəffaf vergi nəzarəti və vergi xidməti formalaşdırılıb. İri vergi ödəyiciləri üzrə işlərin daha keyfiyyətli təşkili həyata keçirilib. Orta sahibkarlar üzrə partnyorluq münasibətləri çərçivəsində işlərin təşkili və kiçik sahibkarlar üzrə daha sadə və optimal vergi öhdəliyinin formalaşdırılması təmin olunub. Regionlarda yerli vergi orqanlarının strukturunda kiçik sahibkarlarla işləyəcək ayrıca idarələr yaradılıb. Yeni administrativ yanaşmada KOS subyektlərinə münasibət yoxlamaların risk dərəcəsi əsasında aparılması və sayının optimallaşdırılması, elektron yoxlama metodunun tətbiqi, əmək haqlarının və dövriyyələrin leqallaşdırılmasının təşviq edilməsi və verginin stimullaşdırıcı rolunun önə çəkilməsindən ibarətdir. Ümumilikdə, bu siyasət və yeni yanaşma sahibkarlığın daha da geniş fəaliyyətini təmin edir, fəallığının artmasına əlverişli şərait yaradır.

### Biznesin təşkili daha da asanlaşdırılır

Strateji yol xəritəsində azad rəqabət mühitinin inkişaf etdirilməsi, biznesin təşkilinin asanlaşdırılması üçün mövcud islahatların sürətləndirilməsi və beynəlxalq reytinqlərdə mövqelərin yaxşılaşdırılması da başlıca məqsədlərdəndir. Artıq bu istiqamətdə müvafiq addımlar atılıb, biznes mühitinin əlverişliliyinin artırılması və beynəlxalq reytinqlərdə ölkəmizin mövqeyinin daha da yaxşılaşdırılması üzrə komissiya yaradılıb. Komissiya göstərilən hədəflərə nail olmaq üçün qarşıdakı dövrdə hökumət tərəfindən ardıcıl olaraq dövlət-sahibkar münasibətlərinin inkişaf etdirilməsi, sahibkarlıq fəaliyyətinə qanunsuz müdaxilələrin və süni maneələrin aradan qaldırılması, rəqabətqabiliyyətliliyin və ixrac imkanlarının genişləndirilməsi, sahibkarlara dövlət dəstəyi və təşviq mexanizmlərinin formalaşdırılması, sahibkarlıq subyektlərinin fəaliyyətində məhsuldarlığın və əməliyyat səmərəliliyinin artırılması, beynəlxalq standartlara uyğun elektron dövlət xidmətlərinin göstərilməsi sahəsində kompleks tədbirlərin həyata keçirilməsi ilə məşğul olacaq.

**Elbrus CƏFƏRLİ**

# İlin əvvəlindən 40 min elektron viza verilib

Azərbaycana gələn əcnəbilər və vətəndaşlığı olmayan şəxslər üçün viza verilməsi prosedurunun sadələşdirilməsi, müasir informasiya texnologiyalarının tətbiqi ilə operativlik və şəffaflığın təmin edilməsi məqsədilə «ASAN viza» portalı fəaliyyət göstərir. Ötən ilin dekabrında təqdimatı keçirilən portal bu il yanvarın 10-dan tam istifadəyə verilib.

Nazirlər Kabinetinin 2017-ci ilin birinci rübünün sosial-iqtisadi inkişafının yekunlarına və qarşıda duran vəzifələrə həsr olunmuş iclasında çıxış edən Prezident İlham Əliyev bildirmişdir ki, keçən il turistlərin, xarici vətəndaşların ölkəmizə səfərləri 11 faiz artmışdırsa, bu ilin birinci rübündə artıq 25 faiz artım var. Bu artımın bir çox səbəbləri olduğunu deyən dövlət başçısı, bunlardan birinin «ASAN viza» sisteminin yaradılması ilə bağlı olduğunu vurğulamışdır.

Qeyd edək ki, Azərbaycanda 80-dən çox ölkə vətəndaşına elektron viza verilir və son 3 ay ərzində «ASAN viza» xətti ilə 40 min viza verilib. «ASAN viza» sistemi vasitəsilə elektron vizaların verilməsi yalnız siyahısı Xarici İşlər Nazirliyi tərəfindən təsdiq edilən ölkələrin vətəndaşlarına və həmin ölkələrdə daimi yaşayan vətəndaşlığı olmayan şəxslərə verilir. E-vizaların alınmasına icazə verilən ölkələrin siyahısı «Elektron viza» portalında da yerləşdirilib.

> «ASAN viza» sistemi vasitəsilə elektron vizaların verilməsi yalnız siyahısı Xarici İşlər Nazirliyi tərəfindən təsdiq edilən ölkələrin vətəndaşlarına və həmin ölkələrdə daimi yaşayan vətəndaşlığı olmayan şəxslərə aiddir

***Elektron vizanın alınması***

İkili və ya daha çox vətəndaşlığı olan əcnəbilər elektron vizanın alınması ilə bağlı müraciət etdikdə səyahət zamanı istifadə edəcəkləri sərhədkeçmə sənədinə uyğun olan ölkəni seçməlidirlər. Elektron vizanın alınması ilə bağlı müraciət edilərkən istifadə olunan sərhədkeçmə sənədi səyahət zamanı təqdim edilən sərhədkeçmə sənədindən fərqli olarsa, elektron viza etibarsız hesab edilir.

Əcnəbilər və vətəndaşlığı olmayan şəxslər elektron viza almaq üçün Azərbaycana gəlmə tarixindən ən azı 3 iş günü əvvəl müraciət etməlidirlər. Sərhədkeçmə sənədinin etibarlılıq müddəti verilməsi nəzərdə tutulan elektron vizanın müddətinin bitməsi tarixindən azı 3 ay artıq olmalıdır. Elektron viza 3 iş günü müddətində verilir və ölkədə qalma müddəti 30 günədəkdir.

Elektron vizanın alınması ilə bağlı müraciət edən şəxslər daxil etdikləri ərizə-anket məlumatlarının və sərhədkeçmə sənədinin fotoşəkil olan səhifəsinin skan edilmiş surətinin doğruluğuna, o cümlədən həyata keçirdikləri ödənişlərin düzgünlüyünə görə şəxsən məsuliyyət daşıyırlar. Elektron ünvanlar barədə məlumatlar düzgün daxil edilməlidir, çünki elektron viza almaq üçün edilmiş müraciətlərin və ödənişlərin qəbulu barədə bildirişlər, habelə elektron viza verilməsi və ya verilməsindən imtina ilə bağlı məlumatlar müraciət edən şəxsin elektron ünvanına göndərilir. Səhv və tam olmayan məlumatlar daxil edildikdə və ya ödənişlər düzgün həyata keçirilmədikdə elektron vizanın alınması ilə bağlı müraciət qəbul edilmir.

***Elektron vizanın ləğvi***

Elektron viza Azərbaycana səyahət etmək və daxil olmaq üçün ilkin giriş icazəsidir. Miqrasiya Məcəlləsində müəyyən edilmiş hallarda girişə icazə verilməyə bilər. Elektron viza əcnəbilərə və vətəndaşlığı olmayan şəxslərə Azərbaycan Respublikasında haqqı ödənilən əmək fəaliyyəti ilə məşğul olmaq hüququ vermir. Miqrasiya Məcəlləsinin 16-cı maddəsində müəyyən edilmiş hallarda elektron vizanın verilməsindən imtina olunur, verilmiş viza ləğv edilir və ya şəxs ölkəyə buraxılmır. Elektron vizanın verilməsindən imtina edildikdə həyata keçirilən ödənişlər geri qaytarılmır. Əcnəbilər və vətəndaşlığı olmayan şəxslər vizanın alınması üçün Azərbaycan Respublikasının müvafiq diplomatik nümayəndəliyinə yenidən müraciət edə bilərlər.

Əcnəbilərin və vətəndaşlığı olmayan şəxslərin ölkədə müvəqqəti olma müddəti vizada göstərilən qalma müddətindən artıq ola bilməz. Bu müddət bitənədək əcnəbilərin və vətəndaşlığı olmayan şəxslərin ölkədə müvəqqəti olma müddəti uzadılmamışdırsa, onlara müvəqqəti yaşamaq üçün icazə verilməmişdirsə, habelə onlardan müvəqqəti olma müddətinin uzadılması və ya müvəqqəti yaşama icazəsinin verilməsi üçün ərizə qəbul edilməmişdirsə, onlar Azərbaycan Respublikasının ərazisini tərk etməlidirlər. Elektron vizada göstərilən müddətdən artıq ölkə ərazisində qalan əcnəbilər və vətəndaşlığı olmayan şəxslər qanunla müəyyən olunmuş qaydada məsuliyyətə cəlb edilirlər.

Qeyd edək ki, e-viza üçün dövlət rüsumu 20 ABŞ dolları təşkil edir. Bu rüsum viza müraciətinə baxılması üçün tələb olunur və heç bir halda geri qaytarılmır.

**AYTƏN**

# Yeni elektron xidmətlər «E-hökumət»də...

## *Vergilər Nazirliyi tərəfindən göstərilən bir neçə yeni elektron xidmət «Elektron hökumət» portalına inteqrasiya olunub*

### Çağrı Mərkəzi vasitəsilə sadələşdirilmiş verginin bəyannaməsinin təqdim edilməsi

Bu xidmət gücləndirilmiş elektron imzası olan vergi ödəyicisinin Vergilər Nazirliyinin Çağrı Mərkəzinə müraciəti əsasında Mərkəzin təmsilçisi tərəfindən onun təqdim etdiyi məlumatlar əsasında 1-ci, 2-ci və 3-cü rüblər üzrə «Sadələşdirilmiş verginin bəyannaməsi»nin hazırlanması və elektron qaydada göndərilməsini əhatə edir. Elektron xidmətin icra müddəti icraçının tələb olunan məlumatları daxil etməsindən, istifadəçinin gücləndirilmiş elektron imza vasitəsilə əməliyyatları təsdiqləməsindən və əməliyyatların informasiya sistemi tərəfindən emalı müddətindən asılıdır.

Bu xidmətdən istifadə etmək üçün istifadəçi Vergilər Nazirliyinin Çağrı Mərkəzinə zəng edərək ondan soruşulan gücləndirilmiş elektron imza mobil nömrəsi və istifadəçi İD məlumatını bildirməlidir. Daha sonra istifadəçi tərəfindən hansı hesabat dövrü üzrə bəyannamə təqdim etmək istədiyi bildirilir və istifadəçiyə bəyannamə üzrə yaranacaq vergi öhdəlikləri barədə SMS göndərilir. İstifadəçi SMS-lə tanış olduqdan sonra Çağrı Mərkəzinin təmsilçisinə razılığını bildirməli, yoxlama kodunu təsdiqləməli və gücləndirilmiş elektron imza PİN 2 kodunu daxil etməklə bəyannaməni imzalamalıdır. Əməliyyat başa çatdıqdan sonra istifadəçinin «Onlayn kargüzarlıq» səhifəsinə əməliyyat tarixçəsi barədə məlumat göndəriləcək.

### Gəlir və ya mənfəət vergisinin hesabatının verilməsi müddətinin uzadılması barədə ərizələrin qəbulu

Bu xidmət Vergi Məcəlləsi ilə müəyyən edilmiş qaydada gəlir və ya mənfəət vergisinin hesabatını vermək öhdəliyi olan vergi ödəyiciləri tərəfindən «Gəlir və ya mənfəət vergisinin hesabatının verilməsi müddətinin uzadılması barədə» ərizə tərtib edilərək vergi orqanına təqdim olunmasını əhatə edir. Ərizənin vergi orqanına təqdim edilməsi İnternet Vergi İdarəsi portalının «Onlayn kargüzarlıq və e-VHF» bölümü üzərindən aparılır. Ərizə gəlir və ya mənfəət vergisi hesabatının təqdim edilməsi üçün Vergi Məcəlləsi ilə nəzərdə tutulmuş müddətdən sonra təqdim olunduğu halda, ondan imtina edilir və sistem tərəfindən bu barədə istifadəçinin ekranına müvafiq mesajlar verilir.

### Fiziki şəxsin vergi uçotundan çıxarılması

Bu xidmət fiziki şəxsin vergi uçotundan çıxarılması üçün ərizənin vergi orqanına elektron qaydada təqdim olunmasını və onun vergi uçotundan çıxarılmasını əhatə edir. Gücləndirilmiş elektron imzadan istifadə edərək sistemə daxil olduqda istifadəçiyə təklif edilən ərizə formasını doldurmaq və təsdiq etmək imkanı yaradılır. Ərizə iş vaxtı başa çatdıqdan sonra və ya qeyri-iş günündə sistemə daxil edilmişdirsə, bu halda onun icrası həmin gündən sonrakı ilk iş gününün əvvəlində həyata keçirilir. Vergi orqanında fiziki şəxsin vergi uçotundan çıxarılması barədə icra edilməmiş ərizəsi olduqda sorğunun yerinə yetirilməsindən imtina edilir. İmtinaya əsas olmadıqda ərizə icraya qəbul edilir.




### Asan imza istifadəçi İD-nin dəyişdirilməsi

Bu xidmət Vergilər Nazirliyinin Asan sertifikat xidmətləri mərkəzləri (ASXM) tərəfindən verilmiş gücləndirilmiş elektron imza olan Asan imza vasitəsilə AsanDoc proqram təminatında və ya nazirliyin Çağrı Mərkəzinə müraciət etməklə Asan imza istifadəçi İD-nin dəyişdirilməsini əhatə edir. Elektron xidmətin icra müddəti istifadəçinin Asan imza vasitəsilə əməliyyatları təsdiqləməsindən və əməliyyatların informasiya sistemi tərəfindən emalı müddətindən asılı olaraq, 3 - 5 dəqiqədir. İstifadəçi https://asanimza.az internet səhifəsindən yüklənmiş AsanDoc proqram təminatında istifadəçi İD-nin dəyişdirilməsi üçün mövcud istifadəçi İD-ni və yeni istifadəçi İD-ni müvafiq xanalara qeyd etməli və mobil telefonda PİN 1 daxil etməklə əməliyyatı təsdiqləməlidir. Əməliyyatın sonunda istifadəçi İD-nin müvəffəqiyyətlə dəyişdirilməsi barədə məlumat ekranda əks olunacaq.

İstifadəçi Çağrı Mərkəzinə müraciət etməklə xidmətdən istifadə etdikdə isə ASXM tərəfindən təqdim edilmiş istifadəçi İD-ni dəyişdirmək istədiyini bildirərək, ondan soruşulan Asan imzanın bağlı olduğu mobil telefon nömrəsini yeni istifadəçi İD-nin məlumatını bildirməlidir.

Əməliyyat istifadəçi tərəfindən təsdiqləndiyi andan sistemdə dəyişiklik aparılır. Asan imzanın bağlı olduğu mobil telefon nömrəsi səhv bildirilərsə, mobil nömrədə «Asan imza» xidməti aktiv olmazsa, istifadəçinin Asan imza sahibi olmadığı müəyyən edilərsə, yeni istifadəçi İD-ni dəqiq bildirməzsə, xidmət yekunlaşdırılmadan əlaqə kəsilərsə xidmətin göstərilməsindən imtina olunur.

### Hazır sənəd barədə məlumatın verilməsi

Bu xidmət vasitəsilə Vergi ödəyicilərinə xidmət mərkəzlərinə müraciət etmiş şəxslər müraciətləri ilə əlaqədar cavab sənədlərinin hazır olub-olmaması barədə məlumatları əldə edirlər. Bunun üçün istifadəçi Vergilər Nazirliyi tərəfindən göstərilən elektron xidmətlərin siyahısından «Hazır sənəd barədə məlumatın verilməsi» xidmət növünü seçməlidir.

İstifadəçi sorğunun formalaşdırılması üçün məlumatları səhv daxil etdikdə sorğu qəbul edilmir. Səhv məlumatın daxil edilməsi istifadəçinin yenidən sorğu verməsinə mane olmur.

**A.NƏBİYEVA**

## Elektron qaimə-fakturanın tətbiqi barədə BİLDİRİŞ

**Hörmətli vergi ödəyiciləri!**

Sahibkarlıq fəaliyyətini həyata keçirən hüquqi və fiziki şəxslərə malların (işlərin, xidmətlərin) təqdim edilməsi zamanı elektron qaimə-fakturanın verilməsi vergi ödəyicilərinin vəzifələrinə aid edilmişdir.

Mövcud qanunvericiliyə əsasən sahibkarlıq fəaliyyəti məqsədləri üçün malların (işlərin, xidmətlərin) təqdim edilməsi zamanı

• **ƏDV-nin məqsədləri üçün qeydiyyata alınmış və vergi tutulan əməliyyatlarının həcmi ardıcıl 12 aylıq dövrün istənilən ayında (aylarında) 200.000 manatdan artıq olan ticarət və (və ya) ictimai iaşə fəaliyyəti ilə məşğul olan** vergi ödəyiciləri tərəfindən **2017-ci il 1 aprel tarixindən;**

• **bütün digər vergi ödəyiciləri** tərəfindən **2018-ci il 1 yanvar tarixindən etibarən** elektron qaimə-faktura təqdim edilməlidir.

Elektron qaimə-fakturanın tətbiqi, uçotu və istifadəsi Qaydaları Azərbaycan Respublikası Nazirlər Kabinetinin 14.03.2017-ci il tarixli 89 nömrəli Qərarı ilə müəyyən edilir.

Elektron qaimə-faktura **«Onlayn rejimdə»** Vergilər Nazirliyinin İnternet Vergi İdarəsində (www.e-taxes.gov.az) gücləndirilmiş elektron imza (o cümlədən Asan İmza) vasitəsilə elektron qaydada tərtib edilərək və ya «Lazımi proqramlar»dan istifadə edilməklə **«Oflayn rejimdə»** tərtib edildikdən və elektron imza (o cümlədən Asan İmza) vasitəsilə imzalandıqdan sonra alıcıya göndərilir.

Vergi ödəyicisinin sahibliyində olan malların alışını təsdiq edən qaimə-faktura və ya elektron qaimə-faktura və ya elektron vergi hesab-fakturadan ən azı biri olmadıqda isə alıcıya təqvim ili ərzində belə hala

• birinci dəfə yol verdikdə alınmış malların **10 faizi**,

• ikinci dəfə yol verdikdə **20 faizi**,

• üç və daha çox dəfə yol verdikdə isə **40 faizi miqdarında** maliyyə sanksiyası tətbiq edilir.

Odur ki, qanunvericiliklə nəzərdə tutulmuş hallarda qeyd edilmiş müddətdən etibarən elektron qaimə-fakturanın tətbiqinə başlanılmalıdır. Fəaliyyətinizlə bağlı risklərin yaranmaması, hər hansı maliyyə itkilərinə məruz qalmamağınız üçün mövcud qanunvericiliyin tələblərinə əməl etməyiniz tövsiyə olunur.

Vergi qanunvericiliyinin tətbiqi və inzibatçılığı ilə bağlı əlavə məlumat almaq üçün Vergilər Nazirliyinin rəsmi internet saytına (www.taxes.gov.az), Çağrı Mərkəzinə (195-1) və vergi ödəyicilərinə xidmət mərkəzlərinə müraciət edə bilərsiniz.

Azərbaycan Respublikası Vergilər Nazirliyi

# Azərbaycanın ixrac potensialı güclənir

2017-ci ilin yanvar-mart ayları ərzində Azərbaycanın xarici ticarət əməliyyatlarının həcmi 4 milyard 119 milyon dollar təşkil edib. Dövlət Statistika Komitəsinin açıqladığı məlumata əsasən, bu göstərici ötən ilin müvafiq dövrünə nisbətən 15,31% çoxdur. Bu dövrdə Azərbaycan xarici dövlətlərə 2 milyard 606 milyon 306 min dollarlıq məhsul ixrac edib. Nəticədə ötən ilin analoji dövrü ilə müqayisədə ixracın həcmində 49,2% artım olub. İdxal əməliyyatlarının həcmi isə 1 milyard 512 milyon dollar təşkil edib, Azərbaycana xarici ölkələrdən gətirilən malların həcmi 17,12% azalıb. Bununla da ölkəmizin xarici ticarət əməliyyatlarında 1 milyard 93 milyon dollar həcmində müsbət saldo yaranıb. Azərbaycanın ticarət partnyorları sırasında 42,9%-lə Avropa İttifaqı ölkələri, 11,2%-lə MDB, 45,9%-lə isə dünyanın digər dövlətləri yer tutur.

Milli Elmlər Akademiyasının İqtisadiyyat İnstitutunun şöbə müdiri Aqil Əsədov hesab edir ki, ticarət dövriyyəsində 1 milyard dollar səviyyəsində müsbət saldonun əldə olunması Azərbaycanın ixrac potensialının güclendiyini təsdiq edir. Milli ixracın stimullaşdırılması məqsədilə sahibkarlıq subyektlərinin idxal və ixrac əməliyyatında tələb olunan sənəd və prosedurların sayının azaldılması, ixracdakı hesablamaların xeyli sadələşdirilməsi, ixracatçılar üçün daha münasib şəraitin yaradılması öz müsbət nəticələrini göstərməkdədir. İxracatçılar üçün mənşə və keyfiyyət sertifikatlarının əldə olunmasının asanlaşdırılması, dəmir yolları, dəniz nəqliyyatı, dəniz limanları və dəniz terminalları vasitəsilə tranzit yüklərin daşınmasında «bir pəncərə» prinsipinin tətbiqi milli ixracın səviyyəsinin yüksəlməsinə imkan verib: «Xüsusilə də qeyri-neft sektoruna dövlət dəstəyinin artırılması bu məhsulların istehsalının və ixracının artmasına səbəb olub. 2017-ci ilin birinci rübündə Azərbaycandan xarici ölkələrə 273 milyon 554 min dollar həcmində qeyri-neft malları ixrac olunub ki, bu da ötən ilin müvafiq dövrü ilə müqayisədə 11,8 faiz çoxdur. İxrac olunan əsas mallar kimya sənayesi məhsulları, fındıq, pambıq lifi, təzə və ya soyudulmuş tomat, şəkər, alüminium, xurma və almadır».




2017-ci ilin birinci rübündə Azərbaycandan xarici ölkələrə 273 milyon 554 min dollar həcmində qeyri-neft malları ixrac olunub ki, bu da ötən ilin müvafiq dövrü ilə müqayisədə 11,8 faiz çoxdur

2017-ci ilin ilk 3 ayında Azərbaycan sahibkarları tərəfindən 77 ölkəyə məhsul ixrac olunub, 132 ölkədən isə mal gətirilib. Qeyri-neft məhsullarının ixrac edildiyi ölkələrin siyahısında ilk beşlikdə Rusiya, Türkiyə, Gürcüstan, Türkmənistan və İsveçrə yer alıb. Ölkədə ixracın təşviqi və stimullaşdırılması ilə bağlı aparılan siyasət tədiyyə balansında müsbət dinamikanın yaranmasına imkan verib. Bu da sahibkarların ixrac potensialının artırılması, investisiya imkanlarının genişləndirilməsi, potensial tərəfdaşların tapılması və birgə əməkdaşlıq layihələrinin həyata keçirilməsinə müsbət təsir göstərir.

A.Əsədov ixrac qabiliyyətinin artmasının ölkənin maliyyə dinamikasına da müsbət təsir etdiyini, maliyyə sabitliyinin güclənməsinə, valyuta bazarının sabitləşməsinə və manatın məzənnəsinin möhkəmlənməsinə səbəb olduğunu bildirir: «Əvvəlki ildə Azərbaycanın valyuta ehtiyatlarının azalması baş verirdisə, artıq bu istiqamətdə əks proses müşahidə olunur və strateji valyuta ehtiyatları 1 milyard dollar səviyyəsinə yüksəlib. Hazırda valyuta ehtiyatlarımız 38,5 milyard dollar təşkil edir. Bu, çox mühüm haldır və 2015-ci ildən sonra strateji maliyyə rezervlərinin azalmasının tam dayandırılması və valyuta ehtiyatlarının artımının təmin olunmasıdır. Bu tendensiaya ölkəmizin güclü iqtisadi təhlükəsizlik dayağının olduğunu göstərir və qlobal böhran şəraitində ən sabit və dayanıqlı maliyyə siyasəti yürütdüyünü təsdiqləyir. Mövcud situasiya manatın tədiyyə aləti kimi möhkəmlənməsinə, idxal və ixracatçılar üçün əlverişli biznesin təşkilinə, daxili bazarda qiymətlərin sabitləşməsinə zəmin yaradır».

İqtisadçı qeyd edib ki, ixracın təşviqi, o cümlədən geri ödəmə dəstəyinin verilməsi, «Made in Azerbaijan» brendinin xarici bazarlarda təşviqi, eləcə də yerli şirkətlərin ixracla bağlı xarici ölkələrdə sertifikat və patentlərin alınması, ixracla əlaqəli tədqiqat-inkişaf proqram və layihələrinə çəkilən xərclərin bir hissəsinin dövlət büdcəsi hesabına ödənilməsi və ixrac yönümlü istehsala verilən kreditlərə əlavə güzəştlərin tətbiqi məqsədilə qanunvericiliyə dəyişiklik edilməsi istiqamətində iş aparılır. Ölkənin investisiya imicinin formalaşdırılması, yerli və xarici investorlara müxtəlif xidmətlər göstərilməsi, investorların cəlb edilməsi və onlarla danışıqların aparılması, investisiyalar və ixrac imkanları üzrə məlumat bazasının yaradılması əsas hədəflərdəndir.

**E.CƏFƏRLİ**

## 2017-ci ilin aprel ayı ərzində vergi orqanına təqdim edilməli olan bəyannamələr və ödənilməli vergilər barədə

### YADDAŞ

**2017-ci ilin mart ayına görə vergi ödəyiciləri tədiyəçisi olduğu**

• Əlavə dəyər vergisi bəyannaməsini,

• Aksiz bəyannaməsini,

• Yol vergisi bəyannaməsini,

• Mədən vergisi bəyannaməsini,

• Pul vəsaitlərinin nağd çıxarılmasına görə sadələşdirilmiş verginin bəyannaməsini,

• Uduşlardan (mükafatlardan) əldə edilən gəlirdən ödəmə mənbəyində tutulan vergi bəyannaməsini cari ilin aprel ayının 20-dən gec olmayaraq vergi orqanına təqdim etməli və hesablanmış vergilər həmin müddətədək tam həcmdə dövlət büdcəsinə ödənilməlidir.

• Daşınmaz əmlakın təqdim edilməsi üzrə sadələşdirilmiş vergi bəyannaməsini cari ilin aprel ayının 20-dən gec olmayaraq vergi orqanına təqdim etməlidirlər *(vergi əməliyyat aparıldığı gün - 1 bank günü ərzində ödənilir)*.

**2017-ci ilin 1-ci rübünə görə vergi ödəyiciləri tədiyəçisi olduğu**

• Sadələşdirilmiş verginin bəyannaməsini,

• Ödəmə mənbəyində tutulan vergi bəyannaməsini cari ilin aprel ayının 20-dən gec olmayaraq vergi orqanına təqdim etməli və rüb üzrə hesablanmış vergiləri həmin müddətədək tam həcmdə dövlət büdcəsinə ödəməlidirlər.

• Cari ilin 1-ci rübü üzrə **muzdlu işlə əlaqədar ödəmə mənbəyində tutulan vergi bəyannaməsini** (ƏDV və sadələşdirilmiş vergi ödəyiciləri bəyannaməni illik - növbəti ilin yanvar ayının 31-dən gec olmayaraq təqdim edirlər) cari ilin aprel ayının 20-dən gec olmayaraq vergi orqanına təqdim etməli, mart ayı üzrə hesablanmış vergini isə həmin müddətədək tam həcmdə dövlət büdcəsinə ödəməlidirlər.

• **Xüsusi notariusların gəlir vergisi bəyannaməsini** cari ilin aprel ayının 20-dən gec olmayaraq vergi orqanına təqdim etməli və mart ayı üzrə hesablanmış gəlir vergisini həmin müddətədək tam həcmdə dövlət büdcəsinə ödəməlidirlər.

• **Dövlət rüsumu haqqında hesabatı** cari ilin aprel ayının 20-dək vergi orqanına təqdim etməlidirlər (notariat hərəkətlərinə görə dövlət rüsumu notarius tərəfindən qəbul edilərək 2 bank günü, xarici ölkələrdəki diplomatik nümayəndəliklərdə aparılan konsul əməliyyatları üçün alınan dövlət rüsumu 1 ay, digər dövlət rüsumları isə tutulduqdan sonra 1 bank günü ərzində dövlət büdcəsinə köçürülür).

**Gəlir və mənfəət vergisi ödəyiciləri** cari ilin 1-ci rübü üzrə hesablanmış cari ödəmələrini aprel ayının 17-dən gec olmayaraq dövlət büdcəsinə ödəməlidirlər.

***Bəyannamələr müəyyən edilən müddətdə təqdim edilmədikdə 40 manat məbləğində maliyyə sanksiyası tətbiq edilir (VM, 57), vergilər vaxtında ödənilmədikdə isə bir ildən çox olmamaqla ötmüş hər bir gün üçün 0,1 faizi məbləğində faiz tutulur (VM, 59).***

**Hörmətli vergi ödəyiciləri, siz öz bəyannamələrinizi və hesablanmış vergiləri Vergilər Nazirliyinin İnternet Vergi İdarəsi portalı vasitəsi ilə elektron qaydada təqdim edə və ödəyə bilərsiniz. Vergi öhdəliklərinizi vaxtında yerinə yetirməyi sizə tövsiyə edirik.**

# Aqrar sahə ölkənin sosial-iqtisadi həyatında önəmli rola malikdir

Prezident İlham Əliyevin bu günlərdə imzaladığı «Azərbaycan Respublikasında kənd təsərrüfatının inkişafı ilə bağlı əlavə tədbirlər haqqında» sərəncamda göstərildiyi kimi, qeyri-neft sektorunun prioritet sahələrindən olan kənd təsərrüfatı məhsullarının istehsalı və emalı ölkənin sosial-iqtisadi həyatında xüsusi əhəmiyyət kəsb edir.

Sərəncamda kənd təsərrüfatı sahəsi üzrə maliyyələşdirmə mexanizmlərinin təkmilləşdirilməsi, aqrar sığortanın inkişaf etdirilməsi və aqrar sahəyə investisiya qoyuluşlarının təşviqi məsələləri önə çıxarılıb və «Azərbaycan Respublikasında kənd təsərrüfatı məhsullarının istehsalına və emalına dair Strateji Yol Xəritəsi»nin «Maliyyəyə çıxışın asanlaşdırılması» bölməsinə əsasən daha əhatəli tədbirlər planının hazırlanması nəzərdə tutulub.

Tədbirlər planında aşağıdakı məsələlərin həlli nəzərdə tutulub:

• kənd təsərrüfatının maliyyə resurslarına tələbatı üzrə hədəflərin müəyyənləşdirilməsi;

• Kredit Zəmanət Fondunun yaradılması imkanlarına baxılması;

• kənd təsərrüfatında innovativ və girovsuz kreditlərin tətbiqi mexanizmlərinin hazırlanması;

• kreditlər üçün girov bazasının genişləndirilməsi;

• kənd təsərrüfatı məhsulları istehsalçılarının maliyyə savadlılığının artırılması;

• aqrar sektora təsir edən risklərin idarə olunması üzrə mexanizmlərin hazırlanması;

• kredit təşkilatlarının vəsaitlərinin kənd təsərrüfatı sektorunun kreditləşməsinə yönəldilməsinin stimullaşdırılması və s.

Sərəncamda, həmçinin, aqrar sığortanın inkişaf etdirilməsi ilə bağlı mövcud qanunvericiliyin təkmilləşdirilməsi, kənd təsərrüfatı sahəsi üzrə Sığorta Fondunun yaradılması imkanlarının dəyərləndirilməsi, Sığorta Hadisələri Reyestrinin hazırlanması, karantin rejiminin tətbiqi ilə bağlı kənd təsərrüfatı istehsalçılarına dəymiş maddi zərərin ödənilməsi mexanizminin yaradılması məsələlərinə də toxunulub. Sənəddə aqrar sahəyə investisiya qoyuluşlarının təşviqi ilə bağlı aqrar investisiya ehtiyaclarının qiymətləndirilməsi və investisiya layihələrinin hazırlanması, investisiya mühitinin yaxşılaşdırılması kimi məsələlər önə çəkilib.

İqtisadçı Pərviz Heydərov sərəncamdan irəli gələn vəzifələri şərh edərkən bildirib ki, aqrar məhsulların istehsalı və tədarükü bölgələrin iqtisadiyyatında əsas gəlir mənbəyini təşkil edir. Bu sahənin inkişafının sürətləndirilməsi üçün regionların mərkəzdən maliyyələşdirilməsi səviyyəsi minimuma endirilməlidir: «Ölkədə əmək qabiliyyətli əhalinin 40%-ə yaxınının aqrar istehsal ərazilərində, başqa sözlə, regionlarda məskunlaşması da nəzərdən qaçırılmamalıdır. Odur ki, kənd təsərrüfatı məhsulları istehsalına yanaşmada yeni mexanizmlər yaradılmalı, investisiya cəlb etmək yolları axtarılmalı və kooperativ təsərrüfat üsullarından istifadə kimi metodlardan geniş istifadə olunmalıdır».

Qeyd olunub ki, kənd təsərrüfatı sahəsi üzrə maliyyələşdirmə mexanizmlərinin təkmilləşdirilməsi bütövlükdə aqrar sektorun inkişafına sıçrayışlı təsir göstərmək imkanına və gücünə malikdir.

Azərbaycanda 2015-ci illə müqayisədə keçən il kənd təsərrüfatında ümumi məhsulun 2,6%, o cümlədən heyvandarlıq məhsulları istehsalının 2,8%, bitkiçilik məhsullarının isə 2,5% artdığı qeydə alınıb. 2017-ci ilin birinci rübü ərzində isə ümumi istehsal 3,5% artıb, bu rəqəm bitkiçilikdə 20%-dən çox təşkil edib.

**Fəxriyyə İKRAMQIZI**

# Azərbaycan aparıcı dünya mediasının maraq dairəsində...

İtaliyanın «L'Opinione» qəzetində tədqiqatçılar Ciorcia Pilar və Domeniko Letizianın müəllifi olduqları «Azərbaycan və İsrail: iqtisadi əməkdaşlıq və multikulturalizm arasında» adlı məqalə dərc olunub.

Məqalədə Azərbaycanın müxtəlif millətlərin və dinlərin sülh içində birgəyaşama nümunəsi olması, Azərbaycanda müxtəlif dinlərə mənsub insanların etiqad azadlığının Konstitusiya ilə qorunması, bu istiqamətdə hökumətin apardığı siyasət barədə danışılır. Əhalisinin mütləq əksəriyyətinin müsəlman olduğu Azərbaycanın, eyni zamanda, xristianlığın ən qədim məskənlərindən olduğu, ölkədə xristian və yəhudi icmalarının da yaşadığı və Azərbaycan dedikdə, tolerantlıq və müxtəlif inancların qarşılıqlı hörmətinin başa düşüldüyü bildirilir. Bunun bariz nümunəsi kimi, Azərbaycan və İsrail arasında siyasi, iqtisadi və xalqlararası münasibətlərdən danışan müəlliflər bildirirlər ki, Azərbaycan İsraillə yaxın əlaqələrə malik azsaylı müsəlman ölkələrindən biridir və burada yəhudi icması cəmiyyətin ayrılmaz tərkib hissəsidir.

Yazıda İsrailin Baş naziri Benyamin Netanyahunun ötən ilin sonlarında Azərbaycana səfəri barədə söhbət açılır, hər iki ölkə liderlərinin Azərbaycan-İsrail əməkdaşlığı və Azərbaycanda müsəlmanların və yəhudilərin sülh içində birgəyaşayışının dünyaya nümunə olması barədə fikirlərə yer verilir.

Məqalədə, həmçinin, yəhudi icmasının Azərbaycandakı həyatı, ölkəmizin paytaxtında və digər şəhərlərində çoxsaylı sinaqoqların, məktəblərin fəaliyyət göstərdiyi, Azərbaycan-İsrail əməkdaşlığının müxtəlif sahələri, o cümlədən enerji, yüksək texnologiyalar, müdafiə, təhlükəsizlik, səhiyyə, kənd təsərrüfatı sahələrini əhatə etdiyi, iki ölkə arasında iqtisadi sahədə önəmli razılaşmaların əldə edildiyi, İsrailin Azərbaycan neftinin ən böyük alıcılarından olduğu və bu ölkənin neft təchizatının 40 faizinin Azərbaycanın payına düşdüyü, habelə İsrailin Azərbaycan iqtisadiyyatının şaxələndirilməsində fəal iştirak etdiyi barədə söhbət açılır.

Müəlliflər məqalənin sonunda qeyd edirlər ki, Azərbaycan-İsrail münasibətləri bu gün siyasi və iqtisadi sahələrdə yüksək səviyyəyə çatıb və iki ölkəni bir-birinə bağlayan önəmli qarşılıqlı maraqlar növbəti illərdə əlaqələrin daha da inkişafına zəmin yaradır.

# İxracla bağlı razılaşma

Cari ilin yanvarında 18 şirkətin iştirakı ilə Almaniyaya təşkil edilən ixrac missiyası çərçivəsində bu ölkəyə çay və narın ixracı ilə bağlı ilkin razılaşma əldə edilib, nar şirəsinin İsveçə ixracı ilə bağlı isə müqavilə imzalanıb.

Bu barədə iqtisadiyyat naziri Şahin Mustafayev məlumat verib. Nazir bildirib ki, Pakistan və Əfqanıstana həyata keçirilən ixrac missiyaları çərçivəsində quru süd və süd məhsulları, nar şirəsi, qənnadı məhsulları, mebel, boru, metal konstruksiyaları və digər tikinti materiallarının ixracı üzrə, Qətərə ixrac missiyası çərçivəsində isə ət, nar şirəsi və Naftalan neftindən istehsal edilən kosmetoloji və tibbi məhsulların ixracı ilə bağlı ilkin razılaşmalar əldə edilib. Həmçinin «Gulfood» beynəlxalq ərzaq, «Prowein» şərab sərgilərində sahibkarlarımız vahid ölkə stendləri ilə iştirak edib, çeşidli məhsulların ixracı ilə bağlı ilkin razılaşmalar bağlayıb və sifarişlər qəbul olunub.

beynəlxalq panoram

# Yunanıstan beynəlxalq kreditorlarla razılığa gəlib

Hökumət beynəlxalq kreditorlarla aparılan danışıqlar zamanı 2020-ci ilədək korporativ verginin dərəcəsinin 3% azaldılaraq 26%-ə endirilməsi barədə razılığa gəlmişdir. Artıq rəsmi Afina beynəlxalq maliyyə qurumları ilə ölkə iqtisadiyyatının xilası fondları üzərində qadağanın qaldırılmasına, eləcə də ödəmə müddəti iyun ayında başlayan borcların örtülməsinə kömək edə biləcək islahatlar paketinin əsas tərkib hissələri barədə saziş imzalamışdır. Hökumət müəyyən şərtlərin yerinə yetirilməsi şərti ilə 2020-ci ildə əlavə mənfəətlər əldə olunması məqsədilə biznesin stimullaşdırılmasına dair tədbirlər görə bilər.

Bundan əlavə, korporativ verginin dərəcəsinin azaldılması ilə yanaşı, Yunanıstanda fiziki şəxslərdən gəlir vergisinin tutulması üçün hədd də aşağı salınacaq. Danışıqlar çərçivəsində aşağı və orta gəlirli vergi ödəyiciləri üçün əmlak vergisinin aşağı salınması, eləcə də illik gəliri 8600 avrodan 20.000 avroyadək olan şəxslər üçün gəlir vergisi dərəcəsinin 2% azaldılaraq 20%-ə çatıdırılması planlaşdırılır. Danışıqların əhatə etdiyi məsələlərdən biri də vergi bazasının genişləndirilməsi tədbirləri daxil olmaqla əlavə maliyyə təminatı planının təsdiqlənməsidir.

Beynəlxalq Valyuta Fondunun açıqlamasında bildirilmişdir ki, Yunanıstan gəlir vergisi bazasını genişləndirməli, vergidən yayınmaya qarşı mübarizəni gücləndirməli, vergi inzibatçılığını təkmilləşdirməli və borclu vergi ödəyicilərini nəzarətdə saxlamalıdır.

# Slovakiya vergidən yayınmaya qarşı mübarizəni sərtləşdirməlidir

Beynəlxalq Valyuta Fondunun (BVF) hesabatında Slovakiyaya əlavə dəyər vergisinin (ƏDV) və korporativ verginin yayındırılmasına qarşı mübarizəni davam etdirmək təklif olunmuşdur. Fond belə hesab edir ki, vergi qanunvericiliyinin kobud şəkildə pozulması sayəsində dövlətin vergi gəlirləri nəzərdə tutulan maksimum göstəricidən əhəmiyyətli dərəcədə az olmuşdur. Vergi qaçaqlığı əsasən tikinti, ticarət və nəqliyyat xidmətləri sektorlarında özünü daha çox göstərir.

BVF-nin hesabatında vurğulanmışdır ki, korporativ verginin nizamlanması və şəffaf sisteminin yaradılması 2019-cu ilədək büdcəni balanslaşdırmağa imkan yaradacaq. Bundan əlavə, Slovakiya ÜDM-dəki vergi gəlirlərini ƏDV, əmlak vergisi və ekoloji yığımlar vasitəsilə 2% artıra bilər. Slovakiya bu vergilərin dərəcələrinə görə ən aşağı göstəricilərə malik olan üç ölkə siyahısına daxildir.

# Yoxlamaların keçirilməsi şərtləri dəqiqləşdirilir

Rusiyanın Federal Vergi Xidməti (FVX) yoxlamaların keçirilməsi və vergidən yayınma hallarının aşkara çıxarılması ilə bağlı siyasətində dəqiqləşmə aparmışdır. FVX-dən vergi müfəttişlərinə göndərilmiş təlimatda bildirilir ki, formal səciyyəli pozuntular əlavə vergi hesablanmasına səbəb olmamalı, diqqət vergilərin dövlətdən gizlədilməsi faktlarını aşkara çıxarmağa imkan verən real əməliyyatlar üzərində cəmləşdirilməlidir. Biznes nümayəndələrinin mövqeyinə görə, son zamanlar əlavə vergi hesablanması əsl problemə çevrilmişdir.

Bu problemin aradan qaldırılması məqsədilə vergi müfəttişləri kontragentləri yoxlayarkən nəzərə almalı olduqları parametrlər konkretləşdirilmişdir. Vergi administrasiyasının bu addımını ölkənin biznes dairələri məmnuniyyətlə qarşılamışdır.

## Xəbər lenti

**Rusiya** hökuməti əlavə dəyər vergisinin artırılaraq 22%-ə çatdırılması, sosial sığorta haqlarının 22%-ə endirilməsi barədə qərarı gələn ilə təxirə salmışdır. Şərhçilərin rəylərinə görə, bununla məsələ gündəlikdən götürülməmişdir və onun ətrafında fəal müzakirələr aparılır.

**Pakistan** bankları korporativ verginin dərəcəsinin azaldılması ilə bağlı qərarın bank sektoruna da şamil olunması barədə hökumətə müraciət etmişlər.

**Ukrayna** Prezidenti Pyotr Poroşenkonun imzaladığı qanunla hüquqi şəxsin hər hansı struktur vahidi müharibə gedən ərazidəki təmas xəttində, özü isə ölkənin başqa bir ərazisində yerləşirsə, həmin hüquqi şəxsin vergi ödəməməyə görə məsuliyyətdən azad olunmaq hüququ ləğv edilmişdir.

**Qətər** hökuməti 2018-ci ildə əlavə dəyər vergisi tətbiq olunana qədər müstəqil vergi orqanı yaratmaq istiqamətində addımlar atır. BVF-nin məlumatına əsasən, 5%-lik ƏDV illik ümumi daxili məhsulun 1,5%-i qədər əlavə gəlir yaradacaq. Bundan əlavə, ölkədə tütün məhsulları və tərkibində şəkər olan içkilər üçün tətbiq ediləcək aksizlər də ÜDM-in artımına müəyyən təsir göstərəcək.

**San-Marino** bu ilin sonunda əlavə dəyər vergisi tətbiq etməyi planlaşdırır. BVF-nin məlumatına əsasən, ƏDV-nin tətbiqi vergi bazasının genişləndirilməsinə kömək edəcək və hökumət üçün sabit gəlir mənbəyi yaradacaq. Bununla da San-Marinonun vergi rejimi Avropa İttifaqının vergi rejiminə xeyli uyğunlaşdırılmış olacaq.

**Şotlandiya** parlamentinin maliyyə komitəsindən bildirilmişdir ki, ümumilikdə Britaniyaya aid olan hava daşımaları üzrə yığım Şotlandiyanın özünə aid aviasiya sərnişinlərindən tutulan vergi ilə əvəz edilmişdir.

# ABŞ-da vergi islahatları müzakirə edilir



Hazırda yaranmış iqtisadi şəraitdə Amerika işgüzar dairələrini narahat edən məsələlərdən biri də budur ki, konqres xarici şirkətlərə yerli şirkətləri satın almağa ixtiyar verən qanun layihəsini təsdiqləsə, onlar xarici rəqiblərinin ciddi təzyiqinə məruz qala bilərlər.

Son illərdə Amerikadan olan çoxlu sayda korporasiyalar öz ölkələrində qeydiyyata durmadan başqa ölkələrdəki firmaları satın alaraq ödənilən vergilərin məbləğinin azaldılmasına səy göstərməkdədirlər. Bu taktikanı ABŞ-ın indiki prezidenti xüsusi həssaslıqla qarşılamışdır və prezident administrasiyası Barak Obamanın illər uzunu öhdəsindən gələ bilmədiyi problemin həlli üçün yeni qeyri-ənənəvi yollar axtarmağa başlamışdır. Lakin Vaşinqtonda fəal şəkildə müzakirə edilməkdə olan vergi islahatının əks nəticə verə biləcəyi qorxusu da yaranmışdır: atılacaq addımlar xarici şirkətlərin ABŞ firmalarını satın ala bilmələri üçün stimul yaradacaq.

İslahat üçün nəzərdə tutulan qanun layihəsinin isə bir hissəsi idxalçılar üçün deyil, ixracatçılar üçün sərfəli olan malların ölkə sərhədindən keçirilməsi üçün verginin təqbiqini əhatə edir. Bu islahat ixrac olunan malların vergidən yayındırılmasına şərait yaradacaq, idxal edilən mallar isə vergiyə cəlb olunacaq.

Hazırda ABŞ-da gündəlikdə olan ən ciddi mövzulardan biri də vergi limanlarından və ofşor zonalardan büdcədən vergi yayındırmaq məqsədilə istifadə edilməsinin qarşısını almaqla bağlı təsirli tədbirlərin görülməsidir. Bu günlərdə ABŞ-ın Demokratlar Partiyasının senatorlarından ibarət bir qrup vergi qaçaqçılığına yol açan beynəlxalq metodların məhdudlaşdırılmasını nəzərdə tutan qanun layihəsini dəstəklədiklərini elan etmişdir. Onlar öz bəyanatlarında göstərmişlər ki, «korporasiyaların aktivlərini və iş yerlərini xarici ölkələrə, kapitalları isə ofşorlara köçürmək yolu ilə vergi sistemini çaşdıra biləcək metodlarını azaltmaq lazımdır».

Rod-Aylend ştatının təmsilçisi senator Şeldon bildirmişdir ki, müvafiq qanunun qəbul edilməsi hazırda qanunçuluqda mövcud olan boşluğun aradan qaldırılmasına şərait yaratmaqla bərabər, həm də ofşorların xidmətlərinə üstünlük verən şirkətlərin əllərindən vergi güzəştlərini almağa kömək edə bilər. Bundan əlavə, senatorun sözlərinə əsasən, hazırkı qanunvericiliyin şərtlərinə görə mənfəət vergisi gələcək fəaliyyət üçün zəruri olan gəlirlər çıxılandan sonra ödənilə bilər. Qanun layihəsi isə mövcud mənfəətlərə aid vergilərin ödənilməsinə qədər gəlirdən çıxılmaları qadağan edir: «İndi vəziyyət belədir ki, şirkətlər özlərinin xaricdə filiallarının olmadığı, bununla da vergi öhdəliyindən azad edildikləri təsəvvürü yaradırlar. Qanun layihəsi bu uyğunsuzluğun aradan qaldırılmasına yönəldilib».

Yeri gəlmişkən, «Oxfam» şirkətinin son hesabatına əsasən, Amerikanın iri korporasiyaları özlərinin törəmə şirkətləri vasitəsilə ümumilikdə 1,6 milyard dollar vəsaiti ABŞ vergi orqanlarından yayındıraraq güzəştli vergi rejimləri olan ölkələrə köçürmüşlər.

# Hava limanı yığımları iqtisadi artıma mənfi təsir göstərə bilər

Beynəlxalq Valyuta Fondunun (BVF) açıqlamasında qeyd edilmişdir ki, Sent-Lüsiyada hava limanı yığımlarının artırılması turizmdən daxil olan gəlirlərə ziyan vura və iqtisadi artımın qarşısını ala bilər. Xatırladaq ki, bu il aprelin 1-dən yerli hökumət hava limanı yığımlarının məbləğini 25 ABŞ dollarından 98 dollara qaldırmışdır. Bu, Qəraib hövzəsi üçün ən yüksək göstəricidir. Hökumətin gözləntilərinə əsasən, bu addımın atılması büdcə gəlirlərini ÜDM-in 0,6%-i qədər qaldıracaq. Rəsmi qaynaqlardan bildirilmişdir ki, hava limanı yığımlarının məbləğinin artırılması 2016-cı ilin noyabrında qəbul edilmiş və bu ilin fevralında qüvvəyə minmiş qanunla bir sıra vergilərin dərəcələrinin aşağı salınması sayəsində yaranan itkilərin yerini doldurmağa yönəldilmişdir.

BVF ekspertləri isə xəbərdarlıq etmişlər ki, hava limanı yığımlarındakı kəskin artım «turizm üçün mənfi təsir göstərəcək ki, bu da digər müsbət tədbirlərin nəticələrini heçə endirə bilər». Fondun mövqeyinə əsasən, vergi islahatları vergi bazasının genişləndirilməsinə, çoxsaylı vergi güzəştlərinin aradan qaldırılmasına və vergi intizamının gücləndirilməsinə yönəldilməlidir.

## krossvord



**Yuxarıdan aşağı:** 1.Qoyun cinsinə aid heyvan növü; 2.Gürcüstanın ikinci ən böyük şəhəri; 3.Şərqdə daha çox işlədilən kişi adı; 4.Tomat, sirkə və ədviyyatdan ibarət sous; 5.Meksika və Amerika kovboyları arasında ənənəvi idman növü; 6.Borclar üzrə faiz və ya əsas məbləğin ödənilməsinə dair öhdəliyin yerinə yetirilməməsi nəticəsində ağır vəziyyət; 9.Uşaq vaxtı bədii və cizgi filmlərində *(«Qırmızı papaq» bədii filmi, «Qızcığaz və delfin» cizgi filmi və s.)* kadrarxası ifa etdiyi mahnılara görə məşhurlaşmış, 1979-cu ildə çəkilmiş «Mən mahnı qoşuram» bədii filmində baş qəhrəmanı - Sona obrazını canlandıran sovet və Rusiya müğənnisinin adı; 13.Yuxu; 15.ABŞ tarixində ilk katolik prezident; 16.Şair, publisist, 1977-ci ildən Azərbaycan Yazıçılar Birliyinin üzvü, respublika Lenin komsomolu mükafatı laureatının adı; 17.İslamda İsanın anası; 18.Beynəlxalq foto agentliyi; 20.Üzərində silahlı adam şəkli olan kart; 21.Azərbaycanın məşhur gülüş ustası. «Nəsrəddin Xocanın 12 məzarı» bədii filmində (1966) baş rolun ifaçısının adı. **Soldan sağa:** 1.Gözlə görünməyən obyektlərə baxmaq üçün böyüdücü şüşələr sistemi olan optik cihaz; 5.Ud tipli alətlər qrupuna daxil olan qədim simli çalğı aləti; 7.Hər hansı mənbədəki işığın gücünü müəyyən etmək üçün cihaz; 8.Şəfqətli, mehriban, meyl edən, sevən, bəyənən; 10.Azərbaycandan görünən ekvatorial bürc; 11.Böyük Britaniyada şəhər; 12.Ensiz, dərin, yamacları dik və qayalıq dəniz körfəzi; 14.Sovet vaxtında az sayda istehsal olunan QAZ-13 reprezentativ avtomobilin adı; 19.Azərbaycan Respublikasının əməkdar rəssamı, Naxçıvan Rəssamlar Birliyinin sədrinin adı; 21.Cinayətkarlar, quldurlar dəstəsi; 22.Elektrik dövrəsini müəyyən hadisələr zamanı avtomatik olaraq açan və ya bağlayan cihaz/alət; 23.Nəzəriyyəçi fizik, müasir nəzəri fizikanın yaradıcılarından biri, fizika üzrə Nobel mükafatı laureatı. Məşhur E=MC² düsturunun müəllifi; 24.Ağ, qara növləri olan xırda, şirəli meyvə və onun ağacı; 25.Bir növün iki fərqli formada mövcud olması.



*Az sayda istehsal olunan sovet avtomobili*

Tərtib etdi: Rafael

*Qəzetimizin ötən nömrəsində getmiş krossvordun cavabları:*

**Yuxarıdan aşağı:** 1.Moskva; 2.Halogen; 3.Çanal; 4.Anket; 5.Tulup; 6.Süvari; 9.Azər; 13.«Aida»; 15.Monblan; 16.Şəfiqə *(Axundova)*; 17.Arnold *(Şvartsenegger)*; 18.Sfinks; 20.Əyani; 21.Mamuk *(xan)*. **Soldan sağa:** 1.Mahaçqala; 5.Tüs; 7.Saloniki; 8.Alov; 10.Vagil; 11.Təzəpir; 12.Andar *(xan)*; 14.Kreml; 19.Ələmdar; 21.Manaf *(Süleymanov)*; 22.İran; 23.Formalin; 24.Əmi; 25.Dodekanes.

Vergilər
SOSİAL-İQTİSADİ HƏFTƏLİK
12 fevral 2000-ci ildən çıxır

Təsisçi: Azərbaycan Respublikası Vergilər Nazirliyi

Baş redaktor: Anar Əliyev, anar.eliyev@taxes.gov.az

Baş redaktor müavini: Məti Osmanoğlu, redaksiya@vergiler.az

Qeydiyyat şəhadətnaməsi № R148
VÖEN: 1300327481
IBAN: AZ46ATAZ01200012258000138090
Atabank ASC. Kod: 507581
VÖEN: 9900006651

M/h: AZ50NABZ01350100000000032944
S.W.I.F.T. BIK ATAZAZ22

Ünvan: AZ 1141, Bakı ş., Əbdürrəhim bəy Haqverdiyev küç., 60

Telefon: 012 403 87 89, 012 403 87 95 (faks / abunə ilə bağlı)

«Vergilər» qəzetinin kompüter mərkəzində yığılıb səhifələnmiş və «Azərbaycan» nəşriyyatında çap olunmuşdur.

Tiraj: 15000

idman

# «Synergy Baku» Mərakeş turunu uğurla başa vurdu



**Mərakeşdə Beynəlxalq Velosipedçilər İttifaqının 2.2 kateqoriyalı 10 günlük «Tour de Maroc» yarışına yekun vurulub. Velotur ölkəmizin «Synergy Baku» kontinental komandası üçün uğurlu sonluqla başa çatıb.**

Sonuncu, 10-cu mərhələdə iştirakçılar Rabatdan Kasablankaya qədər olan 120 km məsafəni qət ediblər. Velosipedçilərimizin hamısı - Elçin Əsədov, Samir Cəbrayılov, Kiril Pozdnyakov və Yosip Rumaç məsafəni 2 saat 30 dəqiqə 31 saniyəyə başa vuran pelotonun içərisində olublar və bununla da yekun sıralanma mövqeyində demək olar ki, heç bir dəyişiklik baş verməyib. Yarışın 1-ci və 4-cü mərhələlərində qalib olan Elit yığma yenidən komandamızın üzvü Kiril Pozdnyakov ümumi təsnifatda 3-cü yeri tutmaqla fəxri kürsüyə qalxıb. İlk 20-likdə «Synergy Baku»nun daha 2 üzvü yer alıb - bunlar müvafiq olaraq 11 və 13-cü yerdə qərarlaşan Yosip Rumaç və 7-ci mərhələnin qalibi olmuş Elit yığmamızın digər üzvü Elçin Əsədovdur. Samir Cəbrayılov isə sıralamada 25-ci olub.

Mərakeş turunun komandamız üçün ən əlamətdar məqamlarından biri də Yosip Rumaçın yarışın ən yaxşı dağ velosipedçisi üçün nəzərdə tutulan «Dağlar Kralı» köynəyinə yiyələnməsidir. 4-cü mərhələdən etibarən liderliyə yüksələn velosipedçimiz bu üstünlüyünü sonadək qorumağı bacarıb və cari mövsümdə komandasına ilk köynəyi qazandırıb.

# «Qarabağ» növbəti çempionluğunu bayram etdi

Aprelin 16-da futbol üzrə Azərbaycan Premyer Liqasında XXVI tura yekun vurulub. Premyer Liqanın lideri Ağdamın «Qarabağ» komandası sona iki tur qalmış 2016-2017-ci il mövsümündə çempionluğunu elan edib.

«Qarabağ» çempionluğu rəsmiləşdirmək üçün lazım olan 3 xalı səfərdə paytaxt təmsilçisi «İnter» komandasını 3:0 hesabı ilə məğlubiyyətə uğradaraq əldə edib. Paytaxtdakı «İnter Arena»da keçirilən oyunun birinci hissəsinin 4-cü dəqiqəsində «Qarabağ»ın heyətində Mahir Mədətov «İnter»in qapısından ilk topu keçirərək hesabı açıb - 1:0. İlk hissədə «Qarabağ» futbolçuları daha bir neçə dəfə qol vurmaq imkanı əldə etsələr də, uğur qazana bilməyiblər.

İkinci hissəyə sürətli hücumlarla başlayan Ağdam klubu matçın 54-cü dəqiqəsində ikinci qolu meydan sahiblərinin qapısından keçirib. Bu dəfə Dino Ndlovu fərqlənib - 2:0. Görüşün 78-ci dəqiqəsində dubl etməklə hesabı 3:0-a çatdıran afrikalı hücumçu komandasının qələbəsini rəsmiləşdirib.

Beləliklə, oyunda üç xala sahib olan Qurban Qurbanovun yetirmələri bu qələbə sayəsində sona iki tur qalmış ardıcıl dördüncü dəfə Azərbaycan Premyer Liqasının çempionu adını qazanıblar.

# İslam Həmrəyliyi Oyunlarına 57 ölkənin idmançıları qatılacaqlar

Mayın 12-22-də Bakıda keçiriləcək IV İslam Həmrəyliyi Oyunlarında İslam Həmrəyliyi İdman Federasiyasına üzv olan 57 ölkənin hamısı qatılacaq. Küveyt idmançıları yarışda İslam Həmrəyliyi İdman Federasiyasının (İHİF) bayrağı altında Müstəqil İslam Həmrəyliyi komandası kimi iştirak edəcəklər. Onların qazanacaqları bütün medallar da İHİF bayrağı altında təqdim ediləcək.

Federasiyanın baş katibi Faysal Əbdüləziz Əl-Nassar bildirib ki, İslam Həmrəyliyi Oyunları birlik və sülh ruhunu özündə yaşadan çoxmillətli, multikultural, çoxnövlü idman tədbiridir: «Əminik ki, islam dünyasının idmançılarını bir araya gətirəcək IV İslam Həmrəyliyi Oyunları cəmiyyətin müxtəlif gəncləri arasında dostluq və sülh əlaqələrini daha da möhkəmləndirəcək. Buna görə də, İHİF-in bütün 57 ölkəsindən olan idmançıların bu oyunlarda iştirak etməsi bizi çox sevindirir və bu nəticənin əldə olunmasında göstərdikləri köməyə görə bütün tərəflərə minnətdarlığımızı bildiririk».

Qeyd edək ki, bunadək 56 ölkənin Azərbaycana gəlməsi məlum idi. Lakin Küveyt Milli Olimpiya Komitəsi Beynəlxalq Olimpiya Komitəsi tərəfindən cəzalandırıldığından onların yarışlarda iştirakına qadağa qoyulub.

BAKU 2017
4th Islamic Solidarity Games

mozaika

texnologiya




«Tesla» və «SpaceX» şirkətlərinin rəhbəri İlon Mask dünyanı dəyişdirəcək növbəti layihəsini elan edib. Onun təsis etdiyi «Neuralink» adlı şirkətin məqsədi kompüterlə insan beynini əlaqələndirmək üçün neyron interfeysinin yaradılması sahəsində həllər hazırlamaqdır. Mühəndis simsiz neyrointerfeysi «neyron şəbəkə» (neural lace) adlandırır.

Şirkət beyinə implantasiya edilən qurğuların yaradılması üzərində işləyəcək. Bu qurğular insanlara kompüterlərə qoşularaq öz fikirlərini rəqəmsallaşdırmağa kömək edəcək. Qeyd edək ki, «Neuralink» ilə yanaşı, «Kernel» şirkəti də insanlarda yaddaş və öyrənmə qabiliyyətinin yaxşılaşdırılması üçün implantasiya edilən qurğu hazırlayır.

sağlam həyat tərzi

## Fəsil depressiyasına tutulmamaq üçün...

Hər il yaz və payız mövsümlərində havaların isinməsi və soyuması ilə əlaqədar bəzi insanlarda depressiya baş verir. Kliniki Tibbi Mərkəzin həkimi, Bakı şəhərinin baş terapevti Rəhilə Əliyeva AZƏRTAC-a müsahibəsində deyib: «İnsanı təbiətdən ayrı təsəvvür etmək mümkün deyil və onun ayrılmaz hissəsidir. Ona görə də təbiətdə baş verən hər hansı dəyişiklik ona təsirsiz ötüşmür. Fəsil depressiyasına daha çox havaların isinməsi ilə əlaqədar yazın əvvəllərində, xüsusən apreldə təsadüf olunur. Depressiya insanın əhval-ruhiyyəsində mənfi istiqamətdə bəzi dəyişikliklərin baş verməsidir. Xroniki ürək-damar və tənəffüs sistemləri xəstəliyi olanlar depressiyalara daha tez məruz qalırlar. Fəsil depressiyası diaqnozu o vaxt qoyulur ki, yorğunluq, həmişə yuxulu olmaq, qidalanmanın zəifləməsi kimi əlamətlər minimum iki-üç il dalbadal özünü büruzə verir. Bu cür depressiyanın yaranmasının əsas səbəbi günəş işığının çatışmazlığıdır. Depressiya orqanizmdə sutkalıq ritmlərdə dəyişikliklərin yaranmasına, bir sıra hormonların, xüsusilə melatonin sintezinin pozulmasına səbəb olur».

Yuxu müddətinin uzanması, oyanmanın çətinləşməsi və səhər tezdən əzginlik, gün ərzində yuxulu olmaq, bəzən erkən oyanma və bir daha yata bilməmək, ümidsizlik hissləri, narahatlıq, həyat eşqinin azalması, müsbət emosiyaların yoxluğu, həyəcanlanma, daxili gərginlik, stressə qarşı dözümün azalması, iştahın artması, qarında və oynaqlarda ağrı, iltihab xəstəliklərinə, soyuqdəyməyə qarşı müqavimətin azalması, dost-tanışlarla ünsiyyətdən qaçmaq fəsil depressiyasının əlamətləri hesab olunur.

Ürək-damar xəstələri, xüsusilə hipertoniya, stenokardiya, işemik xəstəliyi olanlar meteoroloji cəhətdən daha həssas olurlar və onlar üçün bu proses xüsusilə təhlükəli xarakter daşıyır. Məsələ burasındadır ki, həmin xəstələrdən eləsi var ki, fəsil dəyişikliyinə məruz qalarkən təzyiqin yüksəlməsini hiss etmirlər. Bu, xüsusilə təhlükəlidir: «Fəsil depressiyası olanlar isti və küləkli havalarda təbiətlə ünsiyyətdən uzaq olmalı, xüsusi ehtiyac yaranmadığı hallarda açıq havaya çıxmamalı, günəş şüalarının düz düşdüyü saatlarda açıq havada çox gəzməməlidirlər. Həm ürək-damar, həm də kəskin respirator xəstəliyi, rinit və s. olanlar özbaşına dava-dərman, antidepressiantlar qəbul etməməli, çoxlu maye içməli, orqanizmin susuzlaşmasının qarşısını almağa çalışmalıdırlar. Mədə-bağırsaq sistemi xəstəlikləri olanlar minerallarla zəngin olan göy-göyərti və təzə tərəvəzləri çiy qəbul etməkdən çəkinməli və həmin qidaları bişmiş halda yeməlidirlər. Tərkibində immuniteti gücləndirən bal, təzə şirələr, süd və süd məhsulları, yumurta zülalı və s. qidalar daha çox qəbul edilməlidir».

təbiət

## Dünyada nə qədər ağac növü var...

Bitkilərin Mühafizəsi üzrə Beynəlxalq Nəbatat Bağları Şurası (Böyük Britaniya) yer üzündə ağac növlərinin təxmini sayını müəyyən edib: 60 min. Müvafiq tədqiqat «Journal of Sustainable Forestry» dərgisində dərc olunub.

Ən çox ağac növü (8715 vahid) Braziliyada, ən azı isə Şimali Amerikanın Arktika regionunda (1,4 min vahiddən az) bitir. Onların yarıdan çoxu (58%-i) dünyanın yalnız bir ölkəsində bitir və başqa ölkələrdə təsadüf edilmir. Alimlərin fikrincə, belə vəziyyət bitkilərin mövcudluğuna, məsələn, hava hadisələri və insan fəaliyyəti səbəbindən təhlükə yaradır.

Təxminən 300 ağac növünün kökü kəsilmək üzrədir, çünki nəsli kəsilməkdə olan hər bir ağacın populyasiyasının sayı 50 bitkidən çox deyil. Məsələn, Tanzaniyada cəmi 6 «Karomia gigas» adlı ağac bitir. Alimlər bu ağacların toxumlarını yığmağı planlaşdırırlar. Bitkilərin Mühafizəsi üzrə Beynəlxalq Nəbatat Bağları Şurasının mütəxəssisləri ağacların növlərinin sayını müəyyən etmək üçün təşkilatın 500 üzvündən alınmış məlumatlardan istifadə edib. Ekspertlər hesab edirlər ki, siyahının tərtib edilməsi nadir və nəsli kəsilməkdə olan növləri qorumağa kömək edəcək.

Azərbaycan nadir ağac və kol növlərinin vətəni sayılır. Qara cökə üçüncü dövrün qədim bitkisi kimi ölkəmizin meşələrinin nadir incisidir. Bu ağac Böyük Qafqazın cənubunda (Qəbələ rayonu), cənub-şərqində (Pirqulu, Şamaxı rayonu) daha çox yayılıb. Gecböyüyən, lakin uzunömürlü qaraçöhrə heç vaxt geniş əraziləri tutmayıb. Eldar şamının təbii vətəni Ceyrançöl dağətəyi zonasının Eldar düzüdür. Talış dağlarında üçüncü dövrün qədim və nadir ağacları - dəmirağacı, Lənkəran akasiyası, şabalıdyarpaq palıd, Qafqaz xurması, şümşad, Hirkanənciri, ağcaqayın və başqa ağaclar bitir.

## Bir cüt meyvə üçün bir ətək pul...



Yaponiyanın cənubunda yerləşən Miyazaki şəhərində keçirilən hərrac zamanı nadir yerli sortdan olan bir cüt manqo meyvəsi rekord səviyyədə yüksək qiymətə - 400 min yenə (təqribən 3,7 min dollar) satılıb. Kyodo agentliyinin yaydığı məlumata görə, hərracın qalibi Fukuoka univermağının sahibi olub.

Həmin meyvələrin reklam məqsədilə vitrinə qoyulacağı bildirilir. Hərracda təqribən 200 alıcı iştirak edib. Belə hərraclara, adətən, yerli «Günəş növü» adlı meyvələr buraxılır. Həmin meyvələr al rəngi, 15 faizdən çox şəkərə və 350 qramdan çox çəkiyə malik olması ilə seçilir. Bu ilki qalib cütlüyün çəkisinin bir kiloqramdan artıq olduğu bildirilir.

ekologiya

## Qar ətraf mühitdə təmizlik aparır



Kanadanın McGill Universitetinin alimləri araşdırma nəticəsində qarın toksiki və kanserogen çirkləndiriciləri toplaya bildiyini üzə çıxarıblar. Qar zəhərli və xərçəng xəstəliyinə səbəb olan üzvi çirkləndiriciləri, yəni müəyyən çoxnüvəli aromatik karbohidrogenləri absorbsiya etmək qabiliyyətinə malikdir.

Tədqiqatçılar laboratoriyada temperaturu nəzarət olunan şüşə sferaya təzə qar yerləşdiriblər və müasir minik vasitələrindən birinin benzin mühərrikindən işlənmiş qazların çıxması üçün istifadə ediblər. Sonra aşağı mühit temperaturunda maşın emissiyaları ilə qar arasında bağlılıq təhlil edilib. Araşdırma nəticəsində yalnız 30 dəqiqə ərzində qarın maşın mühərrikindən çıxan üzvi çirkləndiricilərin və aerozol hissəciklərin böyük qismini özünə çəkdiyi məlum olub. Bununla da havada olan çirkləndiricilərin qarla qarışıb fərqli tərkibə malik olması və bu kanserogen maddələrin qar əriyəndə torpağa, havaya və suya zərər verə bilməsi aşkarlanıb. Nəticələr «Environmental Pollution» jurnalında da nəşr olunub.

**Müdriklər deyib ki...**



***«Ən acı həqiqət ən şirin yalandan yaxşıdır».***
*V.Q.Belinski (1811-1848)*